# "QARABAĞ"DAN "BRAQA"YA FUTBOL DƏRSİ

Avropadakı təmsilçimiz azarkeşlərini sevindirməkdə, tarix yazmaqda davam edir.

Azərbaycan futbolunun baş tacı "Qarabağ" azarkeşlərini sevindirməkdə, tarix yazmaqda davam edir. Ağdamlılar bu dəfə UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk oyununda dünya futbol ictimaiyyətini təəccübləndirən nəticəyə imza atıblar.

Qurban Qurbanovun baş məşqçisi olduğu komanda Portuqaliyada "Braqa"nın qonağı olub. Tarixində ilk dəfə UEFA Avropa Liqasının 1/16 mərhələsinə yüksələn Azərbaycan təmsilçisi Portuqaliyadan 4:2 hesablı qələbə ilə dönüb.

SƏHİFƏ 16-da





# Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
17 FEVRAL ŞƏNBƏ 2024 I 06 (4157) Qiyməti - 40 qəpik
www.kaspi.az
'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB




## QƏRBDƏN ATILAN XƏYANƏT GÜLLƏSİ

Ermənistanla şərti sərhədin Zəngilan istiqamətində erməni hərbi birləşmələri tərəfindən atəşkəsin pozulması və sərhədçimizin yaralanması sıradan təxribat deyil. Bu hadisə bir daha göstərdi ki, iki ölkə arasında möhkəm sülhü və bunun təminatçısı olacaq yekun sülh müqaviləsini əngəlləmək istəyən qüvvələr var.

SƏHİFƏ 4-də



## HƏYATIMIZI RİSKƏ ATAN SÜRÜCÜLƏR

"Kim bilir nələr olacaqdı?! Ata yolu gözləyən hansı övlad atasız qalacaqdı?! Neçə can, neçə tale xilas edildi?! Bilmirik! Fakt, olacaq haqqında təsəvvür yaradır. Masallı rayonunda yol polisi "Mitsubishi" markalı avtomobili nəzarət qaydasında saxlayır. Sürücü qəti etiraz edir: "Sənədlərim var, dilimə spirtli içki dəyməyib, sərxoş deyiləm...".

SƏHİFƏ 14-də

GÜCLÜ ORDU QURUCULUĞU PROSESİ DAVAM EDƏCƏK

# YENİ DÖVR ÜÇÜN YENİ VƏZİFƏLƏR



Artıq ölkəmizin qarşısında yeni hədəflər, vəzifələr var. Prezident İlham Əliyevin andiçmə mərasimində açıqladığı bu məqamlar gələcək inkişafımızın əsas konturlarını təşkil edəcək.

**SƏRHƏDLƏRİN MÜHAFİZƏSİ GÜCLƏNDİRİLƏCƏK**

Hər bir güclü dövlətin əsas göstəricilərindən biri xarici təhdidlərə qarşı müdafiə refleksidir. Bu işdə xüsusi diqqət suveren dövlətin əsas atributlarından sayılan sərhədlərin mühafizəsinə yönəlir. Dövlət başçısının sözlərinə görə, yeni dönəmdə qarşımızda dayanan əsas vəzifələrdən biri də sərhədlərimizin müdafiəsinin gücləndirilməsidir.

**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASI**

Prezidentin də vurğuladığı kimi, yeni dövrdə növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq.

SƏHİFƏ 3-də

"Aktrisa səhnədə gözəl olmalıdır"

## "MƏN TƏBİİ YAŞLANMAQ İSTƏYİRƏM"



Çoxlarının xəyal etdiyi Akademik Milli Dram Teatrının səhnəsinə çıxanda üçüncü kurs tələbəsi idi. İlk rolu onun bu möhtəşəm məbədə vizit kartı oldu. Gənc, gözəl, istedadlı - səhnənin tələb etdiyi bütün keyfiyyətlərə malik aktrisa ömrünü bu doğma səhnəyə bağladı. O vaxtdan isə nə az-nə çox – düz 45 il keçir... Xalq artisti Bəsti Cəfərova "Kaspi" qəzetinə müsahibəsində "geriyə baxıb düşünəndə ki, mən nələr oynamışam... Mən onların hamısını yaxşı oynamışam..." - deyə əminliklə söylədi.

SƏHİFƏ 8-9-da

## TÜRKİYƏ QIRĞIZISTANDA MÖHKƏMLƏNİR

Bişkek və Ankara ikitərəfli ticarətin həcmini beş milyard dollara çatdırmaq niyyətindədirlər. Ankarada Akılbek Japarovla Cevdet Yılmaz arasında aparılan danışıqlar zamanı bu barədə razılıq əldə olunub.

SƏHİFƏ 5-də



## "VƏTƏNİ SEVMƏK İNSANIN QANINDA OLMALIDIR"

Xalq şairi Vahid Əziz: "Utandığım odur ki, atam və anamdan çox nazımı çəkən müəllimlərimi bəzən dəyərləndirməmişəm. Sizə sevgi göstərən insanı həmişə dəyərləndirin".

SƏHİFƏ 12-də



## "GLOBAL MEDİA GROUP"UN TƏBİƏTƏ TÖHFƏSİ

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qaradağ rayonunun Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil edilib. Tədbirdə bir sıra rəhbər şəxslər və media nümayəndələri iştirak ediblər.

SƏHİFƏ 7-də



Ölkəmə atam qədər faydalı olmaq istəyirəm

SƏHİFƏ 11-də



İntihar, kriminal qruplaşmalar, oğurlanan silahlar

SƏHİFƏ 6-da



On manata aldadılanlar

SƏHİFƏ 10-da




Qeyri-neft ixracımız niyə azalıb?

SƏHİFƏ 13-də



Gözəl aktyor, uğurlu qələm adamı

SƏHİFƏ 15-də



# Prezident Almaniyada səfərdədir

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak üçün Almaniyaya səfər edib. Xatırladaq ki, konfrans fevralın 18-ə qədər davam edəcək.

Münxen şəhərində səfərdə olan Prezident İlham Əliyev bir sıra ikitərəfli görüşlər keçirib. Prezidentin qarşı tərəfin müraciətinə əsasən İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Marianinin görüşü olub.

Dövlət başçısı yenə də qarşı tərəfin müraciətinə əsasən ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq ilə bir araya gəlib.

Prezident İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun görüşü reallaşıb.

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteynin də görüşü olub.

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın görüşü olub.

Hakan Fidan dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik edib.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi bir daha vurğulanıb, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik bildirilib.

Görüşdə Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

# NAZİRLƏR KABİNETİNİN yeni tərkibi təsdiqləndi

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin yeni tərkibinin təsdiqlənməsi barədə sərəncam imzalayıb. Hökumətin yeni tərkibində Baş nazir postu yenidən Əli Əsədova həvalə edilib.**




Nazirlər Kabinetinin yeni tərkibi təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Qeyd edək ki, yeni hökumətin tərkibində Fikrət Məmmədov və Mübariz Qurbanlı yer almayıb. Dövlət başçısının digər sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası sədrin birinci müavini Səyyad Adil oğlu Salahlıya həvalə edilib. Ədliyyə naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası isə Prezident sərəncamı ilə ədliyyə nazirinin müavini Azər Məmməd oğlu Cəfərova həvalə edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamı ilə Əli Əsədov yenidən Baş nazir təyin edilib.

**105 LEHİNƏ, 1 NƏFƏR ƏLEYHİNƏ**

Fevralın 16-da Milli Məclis Əli Əsədovun Baş nazir vəzifəsinə təyinatına razılıq verib. "Report"un xəbərinə görə, qanunverici orqanın toplantısında onun namizədliyi səsverməyə qoyularaq qəbul edilib. Milli Məclisin deputatlarından 105 nəfər Ə.Əsədovun Baş nazir olmasının lehinə, bir nəfər əleyhinə səs verib, bir nəfər isə bitərəf qalıb. Daha sonra Ə.Əsədov çıxış edib. O deyib ki, qədirbilən Azərbaycan xalqı şəffaf və demokratik şəraitdə öz layiqli və ədalətli seçimini edərək bir daha dövlət başçısına yüksək inam və etimadını göstərdi: "Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə zamanın çağırışları və mürəkkəb geosiyasi şərtlər fonunda həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini, respublikamızın bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevrilməsini təmin etmişdir".



## HÖKUMƏTİN PRİORİTETLƏRİ AÇIQLANIB

Əli Əsədov növbəti dövrlərdə hərbi sahədə bir çox nailiyyətlərin əldə edilməsi və sərhədlərin toxunulmazlığının təmininin prioritet məsələ olacağını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 30 ilə yaxın işğal altında olan torpaqları azad etməsi ilə ölkəmizin suverenliyinin tam bərpa olunması müstəqil dövlətçilik tarixinin ən şanlı səhifəsidir.

"Növbəti dövrlərdə hərbi sahədə bir çox nailiyyətlərin əldə edilməsi, sərhədlərin toxunulmazlığının təmini əsas prioritet məsələ olacaq. Sosial sahədə inkişaf dövlət başçısının hər zaman diqqət mərkəzində olub. Əhalinin rifahının yaxşılaşdırılması, eləcə də şəhid ailələri və müharibə əlillərinin sosial rifahı önəmli vəzifə kimi yenə də hökumətin qarşısında duran əsas vəzifələrdəndir. Gənclərin təhsili, onların milli-mənəvi dəyərlərə, azərbaycançılıq prinsipinə əsaslanaraq formalaşması, müasir çağırışlara yiyələnməsi gələcək inkişafın təminatçısı olacaq", - əlavə edib.

## KONSTRUKTİV VƏ SƏMƏRƏLİ İŞBİRLİYİ

"Azərbaycan hökuməti ölkənin davamlı inkişafının, xalqın firavan həyatının təmin edilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcək", - deyə Əli Əsədov bildirib. O xatırladıb ki, 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən ilk dəfə Baş nazir vəzifəsinə namizədliyi irəli sürüləndən sonrakı müddətdə Nazirlər Kabineti ilə Milli Məclis arasında birgə fəal iş aparılıb. "Ötən müddət ərzində hökumət və ölkəmizin qanunverici orqanı arasında konstruktiv və səmərəli işbirliyi qurulmuş, müxtəlif qanun layihələrinin və sənədlərin məhsuldar birgə müzakirəsi keçirilmişdir. Buna görə hörmətli deputatlarımıza təşəkkürümü ifadə edirəm. Ümidvaram ki, növbəti müddətdə də bu xoş ənənəni davam etdirəcəyik və birgə səylərimiz bundan sonra da ölkəmizin tərəqqisinə, xalqımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcək. Onu da qeyd edim ki, yaxın vaxtlarda Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat diqqətinizə təqdim ediləcək, ötən il hökumət tərəfindən görülən işləri və qarşıda duran vəzifələri müzakirə edəcəyik", - Ə.Əsədov vurğulayıb.



# YENİ DÖVR ÜÇÜN YENİ VƏZİFƏLƏR

Artıq ölkəmizin qarşısında yeni hədəflər, vəzifələr var. Prezident İlham Əliyevin andiçmə mərasimində açıqladığı bu məqamlar gələcək inkişafımızın əsas konturlarını təşkil edəcək.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Növbədənkənar seçkilərdə böyük səs çoxluğu ilə inamlı qələbə qazanan Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə and içərək rəsmən müstəqillik tariximizdə yeni dövrün başlandığını elan etdi. Dövlət başçısı çıxışında yeni dönəmdə qarşımızda duran əsas vəzifələr və hədəfləri də göstərdi. Prezident bildirdi ki, biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq: "Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm". Dövlət başçısının çıxışından da göründüyü kimi, yeni dövrün əsas hədəfi yenə də güclü Azərbaycandır. Bu hədəfə çatmaq üçün atılacaq addımlar, görüləcək işlər hələ qabaqdadır.

### GÜCLÜ ORDU QURUCULUĞU PROSESİ DAVAM EDƏCƏK

Qüdrətli Azərbaycan həm də güclü ordu deməkdir. Təsadüfi deyil ki, Ali Baş Komandan qarşıda duran əsas vəzifələrdən danışarkən öncə məhz bu məqamı vurğuladı: "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz".

Təbii ki, güclü ordu quruculuğu prosesi bəzi kompleks addımların atılması zərurətini ortaya qoyur. Bu məsələdə əsas diqqət yetirilməli məqamlardan biri ölkənin müdafiə sənayesinin inkişafıdır. Prezident bildirib ki, Azərbaycan hazırda çox güclü hərbi sənaye kompleksi yaradıb, artıq bunun birinci mərhələsi başa çatıb: "İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq".

### SƏRHƏDLƏRİMİZİN MÜHAFİZƏSİ GÜCLƏNDİRİLƏCƏK

Hər bir güclü dövlətin əsas göstəricilərindən biri xarici təhdidlərə qarşı müdafiə refleksi, önləyici tədbirləridir. Bu işdə xüsusi diqqət suveren dövlətin əsas atributlarından sayılan sərhədlərin mühafizəsinə yönəlir. Dövlət başçısının sözlərinə görə, yeni dönəmdə qarşımızda dayanan əsas vəzifələrdən biri də sərhədlərimizin müdafiəsinin gücləndirilməsidir: "Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur".

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASI

Dövlət başçısı Azərbaycana xaricdən gələ biləcək təhdidlərin əsas hədəfini də göstərib - gənc nəsil. Prezident bu məqamın da təhlükəsizliyimiz baxımından çox mühüm olduğu qənaətindədir: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın".

Prezidentin də vurğuladığı kimi, yeni dövrdə növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. "Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq", - deyə dövlət başçısı vurğulayıb.




### SAĞLAM TƏMƏL ÜZƏRİNDƏ QURULAN İQTİSADİ İNKİŞAF

Təbii ki, bütün bu işlərin həyata keçirilməsinin əsasında güclü iqtisadiyyat dayanır. Ölkəmizin iqtisadi göstəriciləri hədəflərə çatmaq üçün iqtisadi bazisin sağlam təməllərə sahib olduğunu göstərir. Dövlət başçısının da vurğuladığı kimi, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır: "Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq".

Prezident qarşıda dayanan hədəflər sırasında vətəndaşların sosial rifah halının daha da yaxşılaşdırılmasını, yoxsulluq səviyyəsinin azaldılmasını, yeni iş yerlərinin açılmasını da xüsusi qeyd edib.

## "BİZİM AİLƏMİZ TÜRK DÜNYASIDIR"

Prezidentin çıxışında yeni dönəm xarici siyasət kursumuzun əsas istiqamətləri və hədəfləri də açıq şəkildə göstərilib. Azərbaycanın bundan sonrakı xarici siyasətində əsas istiqamətlərdən biri türk dövlətləri ilə əməkdaşlığın daha da genişləndirilməsi olacaq. Bunun səbəblərini açıqlayan Prezidentin səsləndirdiyi arqumentlər isə tam əsaslı və məntiqlidir: "İlk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər".

### "GEDİN, ÖZ İŞİNİZLƏ MƏŞĞUL OLUN"

Dövlət başçısının çıxışında ən çox diqqəti cəlb edən məqamlardan biri Azərbaycan-Ermənistan münasibətlərinə ən sonda toxunması idi. Prezident bunun səbəbini açıq mətnlə hər kəsin diqqətinə çatdırdı: "Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# QƏRBDƏN ATILAN XƏYANƏT GÜLLƏSİ



Ermənistanla şərti sərhədin Zəngilan istiqamətində erməni hərbi birləşmələri tərəfindən atəşkəsin pozulması göstərdi ki, iki ölkə arasında möhkəm sülhü və bunun təminatçısı olacaq yekun sülh müqaviləsini əngəlləmək istəyən qüvvələr var.



RÜSTƏM QARAXANLI

Ermənistanla şərti sərhədin Zəngilan istiqamətində erməni hərbi birləşmələri tərəfindən atəşkəsin pozulması və sərhədçimizin yaralanması sıradan təxribat deyil. Bu hadisə bir daha göstərdi ki, iki ölkə arasında möhkəm sülhü və bunun təminatçısı olacaq yekun sülh müqaviləsini əngəlləmək istəyən qüvvələr var. Son 3 ilin gedişatı bu qüvvələrin hansı mərkəzlərdən idarə edildiyinin sirr olmadığını göstərir. Sülhün hansı dövlətlərin və beynəlxalq təşkilatların planlarını pozduğunu həm biz bilirik, həm ermənilər. Zəngəzur dəhlizinin açılması önündə yaradılmış maneələr, "mülki monitorinq" adı altında həyata keçirilən və "binokl diplomatiyası" adını almış casusluq missiyası, ən sonda isə sərhədçimizə açılmış bu xain atəş bir zəncirin sıx əlaqəli bəndləridir.

**TƏXRİBATA QOCALAR GEDİR**

Atəşkəsin pozulmasından dərhal sonra Ermənistan Müdafiə Nazirliyinin açıqlamasında özünü baş vermiş hadisədən faktiki olaraq kənarda tutması qənaətimizi təsdiqləyən çoxsaylı amillərdən biridir. Azərbaycanın həyata keçirdiyi qisas əməliyyatı ilə atəş açılmış postun məhv edilməsi bu ehtimalı sübut etdi: ölən erməni hərbçilərinin hamısı hərbi çağırış yaşından, belə demək mümkündürsə, xeyli qocadırlar. Onlardan biri hətta 1957-ci il təvəllüdlüdür. Bu fakt ilk olaraq erməni mediası tərəfindən işıqlandırıldı. Güman ki, elə rəsmi İrəvanın təşəbbüsü ilə. İctimailəşən məlumata görə, məhv edilən quldurlar Ermənistanda fəaliyyət göstərən "Yerkrapa" veteranlar birliyinin üzvləri olublar. Bu könüllülər ittifaqında Birinci Qarabağ müharibəsinin iştirakçıları toplaşıb və onların revanş ideyasının daşıyıcısı olduqları sirr deyil.

Ermənistan hakimiyyətinin dərhal atəşkəsi pozanlardan xəbəri olmadığı görüntüsünü yaratmaq istəyi bir sığorta cəhdi olsa da, rəsmi İrəvanı məsuliyyətdən qurtara bilməz. Birincisi, mediada və kütləvi aksiyalarda revanş çıxışları edən keçmiş döyüşçülərə hansı əsasla hərbi postlar həvalə edilir? Əgər edilirsə, bunun məsuliyyətini niyə hakimiyyət daşımamalıdır? İkincisi, bu təxribat avropalı "binokl-diplomatlar"ın məsul olduqları ərazidə baş verib. "Müşahidə missiyası"nı ölkəyə dəvət edən Paşinyan hakimiyyətidirsə, deməli, orada hökm sürən özbaşınalığa cavabdeh də onun özüdür. Üçüncüsü, Fransa və Hindistandan alınan silahlar, Qərb mətbuatına Paşinyanın verdiyi müsahibələrdə sülh prosesinə qarşı yönəlmiş pozucu və ziddiyyətli fikirləri elə həmin revanşistləri hərbçimizə atəş açmağa həvəsləndirən dövlət səviyyəli təxribatdır. Odur ki, Ermənistan Müdafiə Nazirliyinin yaxasını kənara çəkmək cəhdi bizdə maksimum sarkastik gülüşə səbəb ola bilər.



## REVANŞİSTLƏR ƏSASƏN XARİCDƏN MALİYYƏLƏŞDİRİLİR

Ermənistanda fəaliyyət göstərən hərbi-siyasi təmayüllü birliklər, revanşist ideologiyanın daşıyıcısı olan qurumlar əsas etibarilə xaricdən maliyyələşdirilir. Maliyyə mənbəyi qismində əsas etibarilə erməni diaspor təşkilatları çıxış edirlər. Onların fəaliyyət göstərdikləri ölkələrdə dövlət orqanları ilə sıx işbirliyində olmadıqlarına yalnız sadəlövhlər inana bilər. Məsələn, Fransada erməni diasporu az qala hökumət ortağı, Makron hakimiyyəti ilə bir koalisiyanın üzvləridirlər. Xüsusilə Avropadakı strukturlar, qitədaxili parlamentar qurumlarda Azərbaycana qarşı atılan çamurlar, ayrı-ayrı ölkələri təmsil edən parlamentarilərin bizə münasibətdə qərəzli yanaşmaları da bu qəbildən olan təzahürlərdir. Hədəf sülhə yol açacaq istənilən başlanğıcı bloka salmaq, iki dövlət arasında sülhün imzalanmasına əngəllər yaratmaq, Ermənistanın daxilindəki revanşist qüvvələri yemləməklə cəmiyyəti daimi təlaşda saxlamaq və bu yolla da regional prosesləri idarə etməkdir. Son 3 ildə bu istiqamətdə kimlər dəridən-qabıqdan çıxır, məlumdur. Atəşkəsin məhz Zəngəzur dəhlizi ərazisində baş verməsi "burada sülh olmayacaq" məzmunlu mesajdır, sülh prosesinə təhdiddir.

**UKRAYNA, YAXIN ŞƏRQ, CƏNUBİ QAFQAZ**

Azərbaycan Prezidenti İlham Əliyevin son 4-5 ay ərzində sərhəddə sakitliyin hökm sürməsini deməsindən dərhal sonra atəşkəsin pozulması bu təxribatın arxasında duranların başlıca hədəfinin sülhə maneə yaratmaq olduğunu sübut edir. Gündə Qərbin bir hərbi məmurunun, yaxud dövlət rəsmisinin gəlib sərhəddə durub binoklla Azərbaycan ərazisini müşahidə etməsi, Çexiya vətəndaşı olan diversantın sərhədçilərimiz tərəfindən saxlanılması, Ermənistan rəsmiləri tərəfindən sülh məqsədi güdməyən bəyanatların səsləndirilməsi bəzi dairələrin Ukrayna və Yaxın Şərqdəki kimi bizim bölgəmizdə də sabitliyi pozmaq niyyətlərindən xəbər verir. Regionda həyata keçirilən iri iqtisadi və logistik layihələrin kimlərə sərf etmədiyi, kimlərin kənarda qalması bu niyyətlərin haradan qaynaqlandığına bir ipucudur. Regional vasitə Ermənistandır, onun daxilindəki alətlər isə guya hakimiyyətə tabe olmayan, ona müxalif qüvvələri.

Aydın şəkildə görünür ki, Qərb və ona inanmış, yaxud bəlkə də tabe olub çıxılmaz vəziyyətdə qalmış Ermənistan bu kimi təxribatlarla vaxt uzadıb yekun sülhdən yayınmaq niyyəti güdürlər. Məqsəd zamanla silahlanmaq, revanşist qüvvələrin öncüllüyü ilə cəmiyyəti yenidən Azərbaycana qarşı konsolidasiya edib ərazi iddialarını davam etdirməkdir. Erməni cəmiyyəti tarixi fiaskolarından nəticə çıxarmaq istəmir. Bilmir deyil, istəmir. İstəsə, çıxara bilər. Bu, erməni xalqının karmasıdır. Tarix göstərir ki, bu xalqı öz bəlasından, bədxassəli şişindən xilas etmək üçün ciddi "cərrahi əməliyyat"sız ötüşmək mümkün deyil. Sərhəddəki erməni hərbi postunun dərhal məhv edilməsi bu əməliyyatın hər an baş verə biləcəyinə işarədir.



# TÜRKİYƏ QIRĞIZISTANDA MÖHKƏMLƏNİR

Rəsmi Bişkek və Ankara ikitərəfli ticarətin həcmini beş milyard dollara çatdırmaq niyyətində olduqlarını bəyan ediblər. Ankarada Qırğızıstan Nazirlər Kabinetinin sədri Akılbek Japarovla Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz arasında aparılan danışıqlar zamanı bu barədə razılıq əldə olunub.



AZƏR NURİYEV

Türkiyə Yaxın Şərq, Şimali Afrika və Cənubi Qafqazda mövqelərini gücləndirməkdədir. Güc mərkəzinə çevrilən qardaş ölkənin diqqət yetirdiyi bölgələr sırasında Mərkəzi Asiya xüsusi yer tutur. Türkiyə və Mərkəzi Asiya ölkələrinin rəsmiləri arasında qarşılıqlı səfərlər, ikitərəfli münasibətlər güclənir, strateji önəm kəsb edir. SSRİ dağıldıqdan və müstəqillik əldə etdikdən sonra daha çox Rusiyanın təsiri altında olan Mərkəzi Asiya ölkələri son illər Türkiyə ilə də münasibətləri inkişaf etdirməkdədirlər. Bu əməkdaşlığın güclənməsində Azərbaycanın da əvəzsiz rolu var. Türk Dövlətləri Təşkilatı iki ölkə lideri sayəsində güc mərkəzinə çevrilməkdədir. Humanitar, mədəni əməkdaşlıq artıq siyasi, iqtisadi, hərbi əməkdaşlığa çevrilib. Zəngəzur dəhlizinin açılması ilə isə Türkiyə və Mərkəzi Asiya ölkələri ilə siyasi, iqtisadi bağlantı daha da güclənəcək. Ən ciddi nailiyyət ondan ibarətdir ki, Mərkəzi Asiya dövlətləri Türkiyənin iştirakı olmadan hər hansı bir problemin həllinin mümkünsüzlüyünü anlayırlar. Bir məsələni də qeyd etmək gərəkdir ki, Türkiyə bölgə uğrunda mübarizədə tək deyil. Artıq regionda oturuşmuş dövlətlər var - Rusiya və Çin. Bu sırada olmaq istəyənlər sırasında ABŞ və Avropa ölkələri də var. Görünən odur ki, region uğrunda mübarizə asan olmayacaq. Özbəkistanla sıx münasibətlər quran rəsmi Ankara artıq Bişkeklə də təmaslarını artırıb.



Akılbek Japarov

## BEŞ MİLYARD DOLLARLIQ TİCARƏT

Artıq rəsmi Bişkek və Ankara ikitərəfli ticarətin həcmini beş milyard dollara çatdırmaq niyyətində olduqlarını bəyan ediblər. Ankarada Qırğızıstan Nazirlər Kabinetinin sədri Akılbek Japarovla Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz arasında aparılan danışıqlar zamanı bu barədə razılıq əldə olunub. Prezident Rəcəb Tayyib Ərdoğanın Bişkekə gözlənilən səfəri ilə əlaqədar təşkil olunan hökumətlərarası komissiyanın 11-ci iclası və biznes forumu da keçirilib. Akılbek Japarov Ankaraya rəsmi səfəri çərçivəsində 500-ə yaxın sahibkarın iştirak etdiyi biznes forumda iştirak edib. O, çıxışında qeyd edib ki, Qırğızıstan-Türkiyə münasibətləri prezident Sadır Japarovun dövründə yeni səviyyəyə yüksəlib:

"2023-cü ilin yanvar-noyabr aylarında Qırğızıstan ilə Türkiyə arasında ticarət dövriyyəsi 560,5 milyon dollar təşkil edib. Eyni zamanda, Türkiyə 2022-ci ildə Qırğızıstan iqtisadiyyatına ən böyük sərmayə qoyan ölkə olub, Türkiyədən yatırılan investisiyaların ümumi həcmi 341,6 milyon dollar təşkil edib".

Öz növbəsində Cevdet Yılmaz da qeyd edib ki, iki ölkə arasında iqtisadi əməkdaşlığın yaxşı potensialı var.

Qeyd edək ki, prezidentlər Sadır Japarov və Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Bişkekdə Strateji Tərəfdaşlıq üzrə Ali Şuranın iclasının keçirilməsi planlaşdırılır.

## ABŞ ÖLKƏYƏ NÜFUZ ETMƏYƏ ÇALIŞIR

Türkiyənin diqqət yetirdiyi bölgədə digər güc mərkəzlərinin fəallığı da səngimir. Xüsusilə Ukrayna müharibəsi səbəbindən Rusiyanı hər yerdə çətin duruma salmağa çalışan Qərbin, ən çox da ABŞ-nin Mərkəzi Asiyadakı fəaliyyəti diqqət çəkir. Lakin bu fəaliyyət gözlənildiyi kimi Türkiyənin yumşaq güc siyasətindən fərqli olaraq təhdid və şantaja əsaslanır.

Bu günlərdə Qırğızıstan rəhbərliyi ABŞ-nin ünvanına sərt bəyanat verib. Prezident Sadır Japarov ABŞ dövlət katibi Antoni Blinkenə cavab məktubunda Vaşinqtonu və digər ölkələrin hökumətlərini respublikanın daxili işlərinə qarışmamağa çağırıb. Bundan əvvəl Blinken Japarova mesaj göndərərək Qırğızıstan parlamentinin "Qeyri-kommersiya təşkilatları haqqında" qanuna dəyişikliklərə baxmasından narahatlığını ifadə edib. Japarov məktubda Bişkekin bərabərhüquqlu əməkdaşlığın tərəfdarı olduğunu və bütün ölkələr və beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ ilə birgə işləməyə hazır olduğunu vurğulayıb. "Mən həmçinin vurğulamaq istəyirəm ki, biz bərabərhüquqlu əməkdaşlığın tərəfdarıyıq və bütün ölkələr və beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ ilə birgə işləməyə hazırıq. Mənim yeganə xahişim ölkəmizin daxili işlərinə qarışmamaqdır", - Qırğızıstan lideri qeyd edib. Japarov təəssüflə bildirib ki, ABŞ dövlət katibinin Qırğızıstanda insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlı "obyektiv" fikirləri yoxdur.

Beləliklə, Qırğızıstan uğrunda fövqəldövlətlərin mübarizəsi qızışır. Bu mübarizədən kimin qalib çıxacağını söyləmək isə çətindir. Son seçimi təbii ki, qırğız xalqı edəcək.



Cevdet Yılmaz

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ERMƏNİSTANDA ÇAĞIRIŞÇI SAYINDA KƏSKİN AZALMA MÜŞAHİDƏ EDİLİR

# İntihar, kriminal qruplaşmalar, OĞURLANAN SİLAHLAR



Son doqquz ildə Ermənistanda çağırışçı sayında 44 faiz azalma müşahidə edilib. Bu, ölkəni tərk etmə, hərbi xidmətdən yayınma, kütləvi rüşvət halları, demoqrafik problem və sosial-iqtisadi sahədəki çatışmazlıqlar fonunda baş verir.

**FUAD ABASOĞLU**

Ermənistan ordusunda son dövrlər intihar və əsgərlər arasında bir-birini qətlə yetirmə halları kəskin şəkildə artıb. Müharibədən sonra məhv olmuş ordunu bərpa etmək baş nazir Nikol Paşinyan üçün başağrısına çevrilib. Paralel olaraq yaşanan problemlər orduda böhran vəziyyətinin kəskinləşdiyini ortaya çıxarır. "Dedovşina", rüşvət, yeyinti halları, oğurluğun tüğyan etdiyi silahlı qüvvələr siyasi hakimiyyəti çıxılmaz vəziyyətə salıb. Bu isə erməni dövlətinin hələ uzun müddət normal orduya sahib olmayacağından xəbər verir.

### SƏFƏRBƏRLİKLƏ BAĞLI ÇAĞIRIŞÇI PROBLEMİ

Son doqquz ildə Ermənistanda çağırışçı sayında 44 faiz azalma müşahidə edilib. Bu, ölkəni tərk etmə, hərbi xidmətdən yayınma, kütləvi rüşvət halları, demoqrafik problem və sosial-iqtisadi sahədəki çatışmazlıqlar fonunda baş verir.

Paşinyan hökuməti orduda şəxsi heyətin sayını artırmaq üçün hərbi xidmətə çağırış yaşının yuxarı həddinin artırılmasını təklif edib. Layihəyə görə, çağırışçı yaşı 18-40 arasında dəyişməlidir. Yaş həddinin artırılması isə xidmətdən yayınaraq digər ölkələrdə vaxt keçirən erməni kişilərinin ölkəyə qayıdışını daha da əngəlləyib.

### QƏRBİN VƏD ETDİYİ YARARSIZ SURSAT

Bununla belə, şəxsi heyətin sayını artırmaq heç də problemi həll etmək anlamına gəlməz. Çünki ordunun döyüş hazırlığı üçün müasir texnologiya, silah və sistemlər lazımdır. Müharibədə ciddi hərbi-texniki itkilərə məruz qalan Ermənistanın itirdiyini yeniləməyə nə büdcəsi, nə də gücü çatır. Qərbin vəd etdiyi texnika və silahlar isə ciddi arsenal üçün işə yaramır. Bütün silah alqı-satqıları, müqavilələr şoudan başqa bir şey deyil.

## XƏSTƏLƏRİ ƏSGƏR APARMAQ

Artıq erməni siyasi elitası ordunun şəxsi heyətinin sayını artırmaq üçün yeni üsula əl atıb. Məlum olub ki, ciddi xəstəliyi və fiziki məhdudiyyəti olan şəxslər belə, ordu sıralarına cəlb edilirlər. Çağırışçının şəxsi vəsaiti hesabına həkimlərdən keçmək üçün maddi imkanı olmayanda səhhətində yaranan problemlər aşkar edilməmiş qalır. Hətta şəxsi vəsaiti hesabına müayinədən keçmək üçün tibb müəssisəsinə müraciət edən çağırışçılar da problemlərlə qarşılaşırlar. Həkimlər müxtəlif bəhanələrlə müayinədən imtina edirlər. Bunun səbəbi isə "yuxarılar"dan alınan təlimatdır. Artıq çağırışçıların ətraflı və tam müayinədən keçmədən hərbi xidmətə aparılması barədə faktlar kütləviləşməyə başlayıb.

### QEYRİ-DÖYÜŞ ŞƏRAİTİNDƏ ARTAN ÖLÜM HALLARI

Son dörd il ərzində Ermənistan ordusunda ölüm hallarında da ciddi artım müşahidə edilib. Məsələn, 2019-cu ildə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayı 49 idisə, 2022-ci ildə bu rəqəm 64-ə çatıb. Eyni neqativ tendensiya özünə zərərvermə, intiharla bağlı da müşahidə olunur. 2020-ci ildə belə halların sayı 65 idisə, 2022-ci ildə bu say 108-ə çatıb.

Erməni hərbçilərinin ölümü ilə bağlı əsas problem kriminala meyllilik, "dedovşina", dözülməz xidmət şəraiti, ağır mənəvi-psixoloji atmosferdir. Müdafiə Nazirliyi isə problemi həll etmək əvəzinə nəticələr ilə "boğuşur". Məsələn, hərbi hissədəki ağır şərait, aclıq, zabit heyətinin xoş olmayan münasibəti ilə razılaşmayanları fərarilikdə ittiham etmək adi hal alıb. Bu faktla üzləşən əsgər isə çıxış yolunu əksər hallarda intiharda görür.

### ORDU ZABİT ÇATIŞMAZLIĞINDAN DA ƏZİYYƏT ÇƏKİR

Son illər ərzində erməni ordusu kadr və zabit çatışmazlığından da əziyyət çəkir. Tibbi təchizat, qidalanma, lazım olan avadanlığın olmaması da mənəvi-psixoloji faktoru təşkil edir. Az maaşla dolanan zabit heyəti tez-tez dövlət əmlakını talayıb satır, əsgər heyətindən rüşvət yığır. Eyni zamanda sərxoşluğa meylli zabitlərin sayında da kəskin artım müşahidə edilir.

Bu gün erməni ordusunda "dedovşina"nın, demək olar ki, qanuni hal alması, hərbi hissələrin kriminal elementlər tərəfindən idarə edilməsi ən böyük narazılıq yaradan faktordur. Əsgər ölümləri ilə bağlı zabitləri cəzalandıran, faktları araşdıran, bunu tələb edən heç kəs yoxdur.



## "HƏMAS"A ÖTÜRÜLƏN SİLAHLAR



Bu yaxınlarda erməni ordusu ilə bağlı daha bir qalmaqal üzə çıxıb. Məlum olub ki, müharibədən sonra "Kalaşnikov" markalı 17 min avtomat itib. Ermənistanın daxili işlər naziri Vahe Kazaryan bildirib ki, hazırda bu sayda silah anbarlarda əksik gəlir.

Ümumi Ermənistan ordusunun 65 min nəfərlik heyətdən ibarət olduğunu nəzərə alsaq, 3 piyada briqadasından da çox əsgərin silahının yoxa çıxdığı məlum olur. Bu, 1400 qutunun 10 iri yük maşınında aradan çıxarılması deməkdir. Erməni siyasətçilər silahların müharibədən sonra itdiyini, Azərbaycan tərəfindən qənimət kimi götürüldüyünü desələr də, rəsmi Bakının hesabatlarında belə bir rəqəm və fakt gözə dəymir.

Artıq politoloqlar və bəzi müxalifət deputatları, xüsusən də Larisa Alaverdyan bəyan edib ki, sözügedən silahlar İran vasitəsilə "HƏMAS" qruplaşmasına ötürülüb. Rəsmi Tehranın sözügedən qruplaşmanı daim silahlandırdığını nəzərə alsaq, bu fakt real görünür.

Bu faktlardan da məlum olur ki, erməni ordusundakı ciddi problemlər hələ uzun müddət qalacaq. Ermənistanın siyasi elitası isə hərbi islahatları sadəcə imitasiya edir. Büdcədən orduya və silahlı qüvvələrə yox, daha çox polis və patrul xidmətinə ciddi vəsait ayrılır. Bu isə Paşinyan hakimiyyətini daxili təhdidlərdən qorumağa hesablanıb. Çünki hökumətə polisi repressiya aparatı kimi gücləndirmək və sıralarını genişləndirmək daha vacibdir.



## "AZƏRİQAZ"A DAXİL OLAN MÜRACİƏTLƏR AZALIB

Bu ilin yanvar ayından indiyə qədər Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinə 123 349 müraciət daxil olub.

"Report" xəbər verir ki, bunu İstehsalat Birliyinin 104 Qəza-çağrı xidməti şöbəsinin rəisi Xalidə Şimşək fevralın 16-da qurumda keçirilən "Açıq qapı" aksiyası zamanı bildirib. Onun sözlərinə görə, daxil olan müraciətlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 6 826 müraciət azalıb.

X.Şimşək bildirib ki, bu il ötən ilin eyni dövrü ilə müqayisədə 507 az müraciət qaz təzyiqinin aşağı olması ilə bağlı olub: "Bu müddətdə daxil olan müraciətlərin arasında sayğaclarla bağlı müraciətlərin sayında 454 ədəd azalma var: "Bu il daxil olan müraciətlər arasında sızma ilə bağlı müraciətlərin sayı 363 ədəd azalıb".

X.Şimşək vurğulayıb ki, müraciətlərin azalmasına səbəb bu müddət ərzində aparılan maarifləndirmə, yenidənqurma işləri olub: "Aparılan yenidənqurma və bərpa, həmçinin sayğacların dəyişdirilməsi işləri sayəsində qaz təzyiqi və sayğacların istismarı ilə bağlı müraciətlərin sayı azalıb".

# "GLOBAL MEDİA GROUP"UN TƏBİƏTƏ TÖHFƏSİ

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qaradağ rayonunun Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil edilib. Ekoloji davamlılıq, ətraf mühitin yaşıllaşdırılması və qorunması məqsədilə təşkil edilən tədbirdə bir sıra rəhbər şəxslər və media nümayəndələri iştirak ediblər.




**Fotolar:** Tapdıq Abdullayev / Global Media Group

"Global Media Group"un təşəbbüsü, "Global Management" və qrupa daxil olan digər şirkətlərin iştirakı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Qaradağ rayonunun Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil edilib.

Ağacəkmə aksiyasında iştirak edən ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov Oxu.Az-a açıqlamasında bildirib ki, ilin sonuna respublika üzrə beş milyon ağacın əkilməsi planlaşdırılır: "2024-cü il ərzində ölkə ərazisində kütləvi ağacəkmə aksiyalarının keçirilməsi planlaşdırılır. Artıq fevral ayından etibarən Abşeron yarımadasında, eləcə də digər ərazilərdə ağacəkmə aksiyaları keçirilir. Bu işdə yerli icra hakimiyyəti orqanlarının, həmçinin digər aidiyyəti qurumların nümayəndələri də iştirak edirlər. Abşeron yarımadasında yerli iqlim şəraitinə yaxşı uyğunlaşa bilən şam və zeytun tingləri əkilib. Hədəfimiz ilin sonuna kimi ölkə ərazisində beş milyon ağacın əkilməsidir. Bu işlərin böyük hissəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin meşələrin inkişafı xidmətinin balansında olan ərazilərdə həyata keçiriləcək. Məqsədimiz ölkə ərazisində yaşıllıq sahələrinin artırılmasıdır. Bu ərazilər damcı suvarma sistemləri ilə təchiz edilib. Abşeron yarımadasında əkilən ağacların 95 faizdən yuxarısı artıq müsbət nəticə verib".

## AKSİYA TƏBİƏTİN QORUNMASINA XİDMƏT EDİR

"Global Assurance" şirkətinin Keyfiyyət Təminatı və Keyfiyyətə Nəzarət Departamentinin direktoru Günel Qureyşi Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu diqqətə çatdıraraq, hər kəsin yaşıl dünya naminə təşəbbüslərə qatılmasının vacib olduğunu bildirib: "Bu aksiyaya görə "Global Media Group"a təşəkkür edirəm. "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar hər birimiz bu aksiyalara qoşulmalı, paytaxt Bakımızı yaşıllaşdırmaq üçün birgə layihələr həyata keçirməliyik".

"Global Management"in Marketinq və Satış Departamentinin direktoru Laura Seyidbəyova isə bildirib ki, aksiya ekoloji davamlılıq məqsədi ilə təşkil edilib: "Global Media Group"un, "Global Management" və qrupa daxil olan digər şirkətlərin iştirakı ilə gerçəkləşdirilən aksiya təbiətin qorunmasına xidmət edir. Birbaşa olaraq "Global Management"in davamlılıq siyasətini təşkil edir. Aksiya bizim silsilə tədbirlərimizdən biridir".



Qeyd edək ki, dayanıqlı iqtisadiyyatın təmin edilməsinə daim xüsusi diqqət ayıran "Global Management" şirkəti ISO-14001 standartlarına uyğun olaraq və 2030 Dayanıqlı İnkişaf Gündəliyinə sadiq qalaraq, iqlim dəyişikliyi, resurs və enerji səmərəliliyinin təşviqi, ekoloji cəhətdən təhlükəsiz iş yerlərinin təmin edilməsi və həyat keyfiyyətinin yaxşılaşdırılması kimi davamlı istehlak və istehsal modellərinə keçidi dəstəkləyir.

Xatırladaq ki, "Global Management" şirkəti beynəlxalq standartlara cavab verən idarəetmə sistemləri vasitəsilə müştərilərin bizneslərinin inkişafı üçün yenilikçi və effektiv həllər təklif edir.

Şirkət maliyyə və mühasibat uçotu, marketinq və satış, satınalma və təchizat, İT (informasiya texnologiyaları), hüquq, İR (insan resursları) və kargüzarlıq, SƏTƏM, keyfiyyət təminatı və keyfiyyətə nəzarət sahələrində autsorsinq xidmətləri təklif edir.

# "Türkiyədə Qərbi Azərbaycan izləri"

AZƏRBAYCAN GƏNCLƏR FONDU

QIZILBAŞ GƏNCLƏRİ MAARİFLƏNDİRMƏ İCTİMAİ BİRLİYİ

**"Türkiyədə Qərbi Azərbaycan izləri"**
sənədli filmi

"Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyi tərəfindən Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Qərbi Azərbaycan türklərindən və onların yurd həsrətindən bəhs edən "Türkiyədə Qərbi Azərbaycan izləri" sənədli filminin təqdimat mərasimi keçirilib. Təqdimat mərasimində millət vəkilləri, QHT, media rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Natavan Abbaslı ekran işinin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Gənclər Fonduna təşəkkürünü bildirib.

Layihə rəhbəri Aqil Ələsgər filmlə bağlı fikirlərini bölüşüb: "Cənab Prezident, Müzəffər Ali Baş Komandanın 30 illik Qarabağ həsrətinə son verməsi Azərbaycan xalqının qələbə ruhunu özünə qaytardı. Bu zəfər bizim üçün digər zəfərlərin də mündəricatı sayıla bilər. Hesab edirik ki, o torpaqlara qayıtmaq bizim ən təbii haqqımızdır. Bu baxımdan İrəvan, Göyçə, Zəngəzur bizim üçün bir xəyal deyil, hədəfdir. Bu filmdə Türkiyədə yaşayan, orada Cümhuriyyətin qurulmasında və inkişafında xidmətləri olan azərbaycanlılarla bağlı məlumatlara yer vermişik".

Daha sonra film nümayiş olunub. Nümayişdən sonra ekran işi barədə fikirlər səsləndirilib.

XALQ ARTİSTİ BƏSTİ CƏFƏROVA TAMAŞANIN UĞURLU ALINMASINDA ƏSAS FAKTORUN DÜZGÜN ROL BÖLGÜSÜ OLDUĞU QƏNAƏTİNDƏDİR

# “MƏN TƏBİİ YAŞLANMAQ İSTƏYİRƏM”

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az




Fotolar: Rüfət Mikayılov/Global Media Group

**Xalq artisti Bəsti Cəfərova:** “Teatra gəlməyən insanlar həmişə deyirlər ki, teatrlar boş qalır. Əgər teatra mütəmadi gəlsələr, bunun əksinin şahidi olarlar. Hətta deyərdim ki, pandemiyadan sonra tamaşaçılar da elə bil acmışdılar”.

Çoxlarının xəyal etdiyi Akademik Milli Dram Teatrının səhnəsinə çıxanda üçüncü kurs tələbəsi idi. İlk rolu onun bu möhtəşəm məbədə vizit kartı oldu. Gənc, gözəl, istedadlı - səhnənin tələb etdiyi bütün keyfiyyətlərə malik aktrisa ömrünü bu doğma səhnəyə bağladı. O vaxtdan isə nə az-nə çox – düz 45 il keçir...

Xalq artisti Bəsti Cəfərova “Kaspi” qəzetinə müsahibəsində “geriyə baxıb düşünəndə ki, mən nələr oynamışam... Mən onların hamısını yaxşı oynamışam...” deyə əminliklə söylədi.

## “BU AYRILIQ UZUN ÇƏKDİ”

● **Sizə müsahibə üçün zəng edəndə deyəsən teatrda hansısa tamaşanın qızğın məşqləri gedirdi...**

● “Filumena Marturano” tamaşasının məşqləri idi. Bu tamaşada bizim görkəmli aktyorumuz Ramiz Novruz oynayırdı. O dünyasını dəyişəndən sonra rol Xalq artisti Sabir Məmmədova həvalə olundu. Bu tamaşanın məşqlərinə 2020-ci ildə başladıq. Tamaşanı təhvil verməyə 15 gün qalmış pandemiya elan olundu və teatrlar bağlandı. Bu ayrılıq uzun çəkdi - düz bir il səkkiz ay teatrlar işləmədi. Biz yenidən teatra qayıdanda Ramiz Novruzun xəstələnməsi xəbərini eşitdik. O, bu obrazı oynamaq istəyirdi. Ramiz müalicə ala-ala yenidən məşqləri davam etdirdik. 2022-ci ilin mart ayında tamaşanın premyerasını oynadıq. Təəssüf ki, Ramiz Novruz cəmi iki dəfə o tamaşada səhnəyə çıxa bildi. Onun ölümü bizim üçün böyük itki oldu. Neyləmək olar, həyat belədir - gözəl tərəfi də var, qəmli tərəfi də. İndi tamaşa yenidən repertuardadır.



● **Pandemiya vaxtını xatırladınız. O uzun fasilədə itirdiyiniz tamaşaçıları yenidən teatra qaytara bildinizmi?**

● Biz tamaşaçı itirmədik. Teatra gəlməyən insanlar həmişə deyirlər ki, teatrlar boş qalır. Əgər teatra mütəmadi gəlsələr, bunun əksinin şahidi olarlar. Hətta deyərdim ki, pandemiyadan sonra tamaşaçılar da elə bil acmışdılar. Teatrlar tamaşaçıları cəlb edən məkandır. Mən sovet dönəmindən işləyirəm. Yaxşı tamaşanın həmişə tamaşaçısı var. “Xanuma” tamaşası 2011-ci ildən tamaşaya qoyulub. İndiyə qədər də repertuardadır. Bu tamaşanı dəfələrlə görmüş tamaşaçı yenə gəlib baxmaq istəyir. Hətta deyərdim ki, mənim və digər həmkarlarımın sözlərini bizdən yaxşı bilirlər.

● **“Xanuma”nın bu qədər uzunömürlü olmasının səbəbi nədir? Qadın taleyi?**

● Səbəb odur ki, rejissor düzgün aktyor seçimi edib. Və bir də aktyorlar o tamaşanı təzə-tər saxlamaq üçün mücadilə edirlər. Hər tamaşada hamı həvəslə oynayır. Aktyorlar elə bil oyun vaxtı bir-birilərini tamamlayırlar. Hətta bir ay repertuara salınmayanda iştirakçılar tamaşa üçün darıxırlar. O tamaşanın gözəl aurası var.

## DÜZ 45 İLDİR Kİ...

● **Əvvəllər dramaturqlar vardı, aktrisaların adına rol yazırdılar, rejissorlar da rolları müəyyən aktrisalar üçün nəzərdə tuturdular. Bunu Amaliya xanımdan eşitmişdim. Məsələn, İlyas Əfəndiyev də “Hökmdar və qız”ında Ağabəyim ağanı sizin üçün yazıb. İndi də belə yaradıcı münasibətlər varmı?**

● Hə, əvvəllər belə yanaşmalar vardı. Axır vaxtlar məncə, yoxdur. Rejissora gəlincə, o, materialı götürəndə kiminlə işləyəcəyini artıq beynində qurur. Bu, onların sənətidir. Rejissorlar da çalışırlar ki, tamaşaları yaxşı alınsın. Tamaşanın uğurlu alınmasının əsas sirri doğru-düzgün rol bölgüsündədir. Aktyorlar yerində olanda tamaşa yaxşı alınır.





> “Hələ ki, gücüm var, oynayıram. Nə vaxt gücüm olmayacaq, onda çəkiləcəyəm. Mən öz gücümü bilən insanam.”

● **Ədil İsgəndərovun tələbəsi, Tofiq Kazımovun rejissorluğu, tələbkar tamaşaçı auditoriyası 3-cü kurs tələbəsində çaşqınlıq yaratmadı ki? Ruslar buna yaxşı mənada “başgicəllənmə” deyirlər...**

● Yox, çaşqınlıq yaratmadı... Hərdən fikirləşəndə deyirəm ki, nə yaxşı adları əfsanəyə dönmüş o rejissorlarla ünsiyyətdə oldum, onları gördüm. Ədil İsgəndərov mənim kurs rəhbərim olub. O, 3-cü kursun əvvəlində dünyasını dəyişdi. Həmin müddətdə onun kimi bir rejissordan dərs almaq böyük xoşbəxtlikdir.

Mən teatra 1978-ci ildə gəlmişəm. 3-cü kursun əvvəlində teatrın o vaxtkı baş rejissoru Tofiq Kazımov məni Əkrəm Əylislinin “Quşu uçan budaqlar” tamaşasına dəvət etdi. O tamaşada baş rolu - Səltənəti oynadım. İnstitutu qurtaranda təyinatla “Azdrama”ya gəldim. O vaxtdan düz 45 ildir ki, taleyimi bu sənət ocağına bağlamışam. Mənə xoşbəxtlik nəsib oldu ki, Mehdi Məmmədov kimi bir rejissorla ünsiyyətdə oldum. Onun “İblis” tamaşasında Xavər rolunu oynadım. Mehdi müəllim bir gün mənə dedi ki, “Afət” tamaşasını qurmaq istəyir. Əgər o tamaşanı qursaydı mən yəqin ki, Alagöz rolunu oynayardım. Amma iş elə gətirdi ki, Mehdi Məmmədovun tələbəsi Mehriban Ələkbərzadənin quruluşunda Afət rolunu oynadım. Həyatımda iş barəsində nə olursa, hər şey yaxşılığa doğru olur.

## “NƏ ETDİYİMİ BİLƏN İNSANAM”

● **Rollar qalereyanızdakı obrazlar haqqında düşünəndə daha çox fərəhlənirsiniz, ya “mən indi belə oynayardım” deyə düşündüyünüz məqamlar da var?**

● Hərdən fikirləşəndə ki, hansı rolları oynamışam, özümə də qorxulu gəlir... Alın yazısına, Allahın qismətinə inanıram. Cavan, get-gedə yaşa dolan aktrisanın adına bu qədər rolun yazılması yalnız Allahın qisməti imiş. Mən qismətimə düşən rolları oynadım. Çox böyük, çəkili rollar oynamışam. Hə, bəzən elə rollar oldu ki, mən onları oynamaq istədim, imkan olmadı, təmir getdi, hansısa səbəb oldu... Amma geriyə baxıb düşünəndə ki, nələr oynamışam... Mən onların hamısını yaxşı oynamışam. Kim nə deyir desin, amma mən bunu əminliklə deyə bilərəm. Məsələn, “Solğun çiçəklər” televiziya tamaşasındakı Pəri roluma baxanda “gərək belə edəydim” demirəm. Düşünürəm ki, düz edib belə oynamışam. İndi artıq həyat ötdükcə, yaş üstünə yaş gəldikcə, həyat təcrübəm artdıqca nə oynayıramsa, bilirəm. Nə etdiyimi bilən insanam. Çox dəqiq və məsuliyyətliyəm. Bir işi boynuma götürdümsə, onun məsuliyyətini daşıyıram. Heç bir işimi yarımçıq atan insan deyiləm, öhdəmə götürdüyüm işin sonuna çatmalıyam. Bəzən məndən “sizin uğurunuzun formulası nədir?” - deyə soruşurlar. Mən dəqiq hədəf qoymuram. Hara gedirəmsə, orda məsuliyyətli işləyirəm, düşünmürəm ki, artıq işlədim, gedib istirahət edim və s. Deyim ki, illər sonra buna beləyəm, yox! Tələbə ikən də məsuliyyətli idim, uşaq ikən də məsuliyyətli olmuşam. Harada əmək qoymuşam, o yerdən qiymətimi də, hörmətimi də almışam.

## NƏ VAXT GÜCÜM OLMASA...

● **Müxtəlif taleli qadın rolları: Süreyya, Gülrux, Fedra, Ağabəyim ağa, Xurşudbanu Natəvan, Lalə, Afət... Hansı özünüzsünüz?**

● Heç birində tam özüm deyiləm. Amma o rollar əlbəttə, mənim zərrələrimdir. Mənim xarakterimdən olan zərrələr də hər bir rolumda var. Mənə daha çox yaxın olan “Poçt şöbəsində xəyal” tamaşasındakı rolum idi. O roldan sonra mətbuatda da yazıldı ki, Bəsti öz dərdinə ağlayır, o rolda özünü oynayır. Əvvəla, bu, görkəmli dramaturq Elçininin əsəri idi. Sırf mənim üçün yazılan əsər deyildi. Bu əsər yazılanda mənim 10 yaşım olardı. Bu əsər Bədii Şuradan keçib repertuara daxil ediləndən sonra Ədilə rolu rejissor Mehriban Ələkbərzadənin və Elçin müəllimin razılığı ilə mənə tapşırıldı. Bu əsəri evdə oxuyanda bir həftəyə yaxın yata bilmədim. Bəzi nüansları çıxmaq şərtilə rol xarakterimə o qədər yaxın oldu ki, “məhz mənim üçün yazılan əsərdir”, - deyə düşündüm. Dramaturji əsər yazıçı təxəyyülünün məhsuludur. Aktyor kimi çalışırıq ki, bizə verilən materialı özümüzünkü edək. Onda bu, tamaşaçı tərəfindən gözəl qəbul olunan obraz olur.

● **Yenə də dublyorsuz oynayırsınız?**

● (gülür...) Hələ ki, gücüm var, oynayıram. Nə vaxt gücüm olmayacaq, onda çəkiləcəyəm. Mən öz gücümü bilən insanam, onu da götür-qoy edirəm ki, qüvvəm çatar. Hələ ki, ağır rollara qüvvəm var. Hazırda repertuarımda 3 ağır tamaşa var - “Xanuma”, “Qətibə İnanc”, “Filumena Marturano”... Yeni hazırlanan “Əsrə bərabər gün” tamaşasında Nayman ana rolu üzərində də işləyirəm. Ümidvaram ki, yaxşı bir tamaşa ərsəyə gələcək.

● **Heç düşünmüsünüzmü, kinematoqraflar sizi yaxşı dəyərləndirə bilməyiblər?**

● Həmişə düşünmüşəm... 45 illik fəaliyyətimdə cəmi bir filmdə - “Günaydın, mələyim” filmində çəkilmişəm. Allahın qismətidir, bu filmdə Prima aktrisa rolunu oynamışam. Bu rolla rejissor Oqtay Mirqasımov məni tarixə bir prima aktrisa kimi yazdı. İnanırsınızmı, mən teatrda o qədər gözəl rollar oynadım, o qədər zirvədə oldum, ona görə “kinoda olmadım”, - deyə təəssüflənmirəm. Hə, könül istərdi ki, aktrisanın televiziyada da, kinoda da yaratdığı rollar olsun. Olmadı olmadı da... Yaxşı teatr aktrisası olmaq da az iş deyil. Belə də gözəldir...

● **Vaxtilə tələbə kimi oxuduğunuz auditoriyaya indi professor kimi daxil olursunuz. Tələbələrdə o zamankı entuziazm varmı?**

● Həvəsli tələbələr var. Mən pedaqoji fəaliyyətə başlayanda da vardı, indi də var. Bizim dərslərimiz çox maraqlıdır. Hər gün bayram əhval-ruhiyyəsidir. Oğlanlar əsgərlikdən qayıdandan sonra dərsimə gəlib dinləyirlər. Bizim sənətimiz istilik yaradır. Müəllim-tələbə arasında istilik olmasa alınmır. Biz mənəviyyat insanlarıyıq. Öz sənətimizin sirləri ilə bərabər onları şəxsiyyət kimi də yetişdiririk. Yeri gələndə onlara tərbiyə də veririk. Aktyor sənətində nizam-intizam ən ümdə işlərdən biridir.




## ELƏ SUALLAR VAR Kİ...

● **Haradasa oxumuşam: bəzən aktyorlar sevgi obrazlarını səhnədə ona görə gözəl oynayırlar ki, həyatda eynisini yaşamırlar, eyni obrazla qarşılaşmırlar. Sizcə, bu fikir doğrudur?**

● Mən bu barədə heç fikirləşməmişəm... Bu fərziyyəni heç eşitməmişəm... İndi siz dediniz, mən də düşündüm. Ola bilər... Biz səhnədə sevirik, səhnədə nifrət edirik. Yazılan əsərlərin qadın obrazlarında sevgi daha çoxdur. Ola bilsin, səhnədə gördüyümüz məhəbbət bizim üçün o qədər doyumlu olur ki, həyatda o qədər məhəbbət axtarışında olmuruq. Bilmirəm... Elə suallar var ki, cavabı çətindir və ya mən onun cavabını bilmirəm. Amma o fərziyyə ağlabatan gəlir. Məhəbbət təkcə qadın-kişi anlamı ilə ölçülmür ki... Məhəbbət anlamı çox genişdir. Ətrafımız elə məhəbbətdir. Təki elə içimizdə məhəbbət olsun, hər şey ona bağlıdır. Mən kənardan zabitəli görünürəm. Hətta deyirlər, teatra gələnlər nədənsə məndən çəkinirlər. Amma içimdə o qədər insan sevgisi var ki... Əgər içimdə məhəbbət olmasaydı, səhnədəki o rollarımı oynaya bilməzdim. Sevgi bəlkə də insanın xarakterini müəyyənləşdirən faktorlardan biridir. Daxilində insan sevgisi varsa, yaratmaq istəyirsənsə, - sevgi dolu olmalısan. İnsanın içindəki şamı söndürmək olmaz. O söndüsə yaradıcılıq da bitir.

● **Belə bir fikir də var: aktyorun gözəlliyi rolları ilə bərabər onun ampluasıdır. Gözəllik kömək edir, yoxsa mane olur?**

● Əgər gözəlliyin arxasında istedad yoxdursa, o yarımçıq olur. Zahiri görkəm digər tərəfdən tamamlayır. Biz pərdə açılanda ilk növbədə aktyorun görkəmini görürük, sonra oyunu başlayır. Elə aktyorlar var ki, səhnədə gözəl deyil, amma istedadı adamda elə rəğbət yaradır və o sənə gözəl görsənir. Səhnədə elə gözəl də var ki, bir az sonra görürsən ki, heç nə qalmadı. Çünki gözəlliyin söykənə biləcəyi istedad yoxdur. Amma ikisi də bir-birini tamamlayanda ortaya sənətkar çıxır.

## “AKTRİSA SƏHNƏDƏ GÖZƏL OLMALIDIR”

● **“Səhnə gözəllik tələb edir” - çox məşhur fikirdir. Aktyorlar, müğənnilər bəzən həyatları bahasına estetik əməliyyatlara gedirlər...**

● Buna pis baxmıram, heç kimi də qınamıram. Bəli, aktrisa səhnədə gözəl olmalıdır. Amma özüm heç bir əməliyyat etdirməmişəm. Məni səhnədə görənlər deyirlər ki, hələ həyatda gözələm. Səhnədə gözəl olmağı, qəşəng geyinməyi sevirəm, yaxşı tərəf-müqabillərlə oynamaqdan zövq alıram. Həyatda isə o qədər fərqlənmək istəmirəm. Adi bir insanam həyatda – sevən anayam, bacılarımın bacısıyam, qohumlarımın qohumuyam. Tamaşaçı məni 78-ci ildən görür. Yaşım da hamıya bəllidir. Heç vaxt yaşımı gizlədən insan olmamışam. Bu prosesi həm səhnə, həm yaş baxımından təbii gedirəm. Mən təbii yaşlanmaq istəyirəm.



## İŞƏ DÜZƏLMƏK İSTƏYİB, İŞƏ DÜŞƏNLƏR

DİQQƏT!

# ON MANATA ALDADILANLAR

Ölkəmizdə işədüzəltmə sahəsində vasitəçilik qanunla tənzimlənir. Qanunvericilikdə bunu yalnız hüquqi şəxslər edə bilər. Amma hazırda VÖEN-i olan və ya olmayanlar sosial şəbəkələrdə, müxtəlif platformalarda elan yerləşdirməklə insanları aldadırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

“Məndən 20 manat tələb etdilər. Hətta müqavilə də imzaladılar. Dedilər ki, işə qəbul edilsən əməkhaqqının yarısını verməlisən. Uzun müddət keçsə də, heç bir iş tapmadılar. Ödədiyim məbləği də geri qaytarmırlar”.

Sosial şəbəkələrdə işədüzəltmə şirkətləri ilə bağlı bu tipli şikayətlərin sayı artmaqdadır. Bu şirkətlərin fəaliyyəti ilə bağlı açıq qalan suallar hələ də həllini tapmayıb. Bəs insanlar necə etsin ki, bu cür fırıldaqçılığa qurban olmasınlar?

### “HƏM VƏTƏNDAŞLAR, HƏM DƏ ŞİRKƏTLƏRLƏ İŞLƏYİRİK”

Dövlət Məşğulluq Agentliyində qeydiyyatdan keçmiş işədüzəltmə şirkətlərindən birində işə qəbul üzrə menecer kimi fəaliyyət göstərən Afa Həsənova deyir ki, ciddi işədüzəltmə şirkətləri real fəaliyyət göstərirlər: “Bizim saytımız var. Bütün elanlar orada yerləşdirilir. İnsanlar sayt vasitəsilə müraciət edə bilirlər. Orada özlərinə uyğun vakansiyaları seçib, CV-lərini göndərirlər. Sonra biz onları dəyərləndiririk. Uyğun gələn CV-lərə müraciət olunur. Əgər şərtlər həm namizədə, həm də şirkətə uyğun gəlirsə, o zaman müsahibə təyin edilir. Həmçinin, şirkətlər də kadr axtararkən müraciət edə bilirlər. Birbaşa öz bazamız üzərindən axtarış veririk. Yaxud saytda elan yerləşdiririk. Namizədlərə tələbləri göndəririk, əgər qəbul edilərsə, öncə bizimlə müsahibədə olurlar, ondan sonra isə həmin şirkətlərə müraciət edə bilirlər”.

### İNSANLAR HEÇ BİR ÖDƏNİŞ ETMƏMƏLİDİRLƏR

Menecerin sözlərinə görə, əgər şirkət pul tələb edirsə, deməli fırıldaqçıdır: “Vətəndaşlardan pul alan şirkətlər qeyri-qanunidir. Real şirkətlərdə belə hallar baş vermir. Hansısa şirkəti işçi ilə təmin ediriksə, yalnız fəaliyyətimizə görə şirkət tərəfindən xidmət haqqı ödənilir. Amma işlə təmin edilən, yaxud müraciət edən vətəndaşdan nə işəgötürən şirkət, nə də işə düzəldən tərəfdən ödəniş alınmamalıdır”.

A.Həsənova bildirdi ki, şirkətə müraciət edərkən ən əsas diqqət olunmalı meyar vakansiyanın doğru olduğunu müəyyən etməkdir: “Vətəndaş bilməlidir ki, vakansiya realdır, yoxsa yox. Aldanmamaq üçün işədüzəltmə mərkəzinin hansı şirkətlərlə əməkdaşlıq etdiyinə, vakansiyaların harada olmasına baxıb dəqiqləşdirməlidirlər”.

### ƏKSƏR HALLARDA İŞLƏ TƏMİN ETMİRLƏR

İnsan resursları üzrə mütəxəssis Nüsrət Xəlilov dedi ki, işədüzəltmə şirkətləri dedikdə, bir çox hallarda ağla fırıldaqçılıq halları gəlir: “Bir neçə il öncə onların iş prinsipini öyrənmək üçün müraciət etmişdim. Bu zaman məndən də kod açmaq adı ilə 20 manat pul istəmişdilər. Hansısa şirkətə işə qəbul olunduqda birinci və ikinci ayın maaşının 50 faizini onlara verməli idim. Amma həmin işədüzəltmə şirkəti məni heç bir sorğu-sual etmədi, peşəkarlıq səviyyəm haqqında məlumat toplamadı. Belə işədüzəltmə mərkəzlərinin bir neçə şirkətlə hansısa razılaşması olur. Vasitəçi kimi işçini həmin şirkətə göndərirlər. İşçi müsahibədən keçərsə, onlar da ödəniş alırlar. Amma əksər hallarda bu, baş vermir. Məsələ ilkin mərhələdə alınan məbləğlə yekunlaşır”.

N.Xəlilovun fikrincə, etimad edilən şirkətlər də mövcuddur: “İşədüzəltmənin bir növü də şirkətlər üçün işçi axtarmaq xidmətidir. Məsələn, hansısa müəssisədən tələb gəlir ki, “bizə bu göstəricilərdə işçi lazımdır”. Onlar da bazardan həmin işçini axtarıb tapır, müsahibə edir, təlimatlandırır və onu müəssisədə işlə təmin edirlər. Bu, müqavilə və xidmət haqqı ilə olur. Müqavilədə tərəflərin öhdəlikləri və hüquqları müəyyənləşir”.




### FIRILDAQÇILIĞIN İLKİN ƏLAMƏTLƏRİ

Ekspert qeyd etdi ki, dəqiq məlumatlar qeyd olunmayan vakansiyalara müraciət etmək, özünü fırıldaqçının əlinə vermək deməkdir: “Mən insanlara işədüzəltmə şirkətlərinə müraciət etməyi məsləhət görməzdim. Çünki əksər hallarda bu, fırıldaqçılıq hallarına gətirib çıxarır. Bir çox hallarda elanlar paylaşılır, amma şirkət adı, ofis yoxdur. Bunlar fırıldaqçılığın ilkin əlamətləridir. Sığortalanmaq üçün insanlar baxmalıdır ki, şirkətin saytı, ofisi varmı? Müraciət etdikdə müsahibə edirlərmi, vətəndaşa nə vəd edirlər?”

Hüquq müdafiəçisi Sahib Məmmədov bildirdi ki, bu mövzuda insanlar hələ də aldanırlar: “Bu fəaliyyət qanunla tənzimlənir. Qanunvericilikdə bunu yalnız hüquqi şəxslər edə bilər. Amma hazırda VÖEN-i olan və ya olmayanlar sosial şəbəkələrdə, müxtəlif platformalarda elan yerləşdirməklə insanları aldadırlar. Hansısa anketi doldurmağa görə 10-20 manat məbləğ tələb edirlər. Hətta bəziləri daha da irəli gedərək daha böyük pullar alırlar. Çarəsiz insanlar da ümid edirlər ki, işlə təmin olunacaqlar. Bu cür şirkətlər 3-5 ay müəyyən bir yer kirayə götürüb fəaliyyət göstərirlər, bir müddət sonra həmin yerdən köçürlər”.



## CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB OLUNA BİLƏRLƏR




S.Məmmədovun sözlərinə görə, bu şəxslər barədə insanlar şikayətçi olmadığı üçün fırıldaqçılıq halları bitmək bilmir: “Cəza məsələsi bir az qəlizdir. Çünki 10-20 manat verib aldanan adamlar əksər hallarda müvafiq orqanlara şikayət etmirlər. Düşünürlər ki, müraciət etsələr bir neçə dəfə də gedib-gəlməli olacaqlar. Şikayət də yoxdursa, bu halda müvafiq orqanlar hərəkətə keçə bilmir”.

Müsahibimiz fırıldaqçıları gözləyən cəzalardan da danışdı: “15-20 manata görə kimsə şikayət etdikdə, dələduzu tutsalar, bu, inzibati xəta hesab ediləcək. Bunun da cəzası yalnız cərimədir. Yox, əgər kütləvi surətdə dələduzluq edilibsə, bu zaman cinayət məsuliyyəti yaranır. Kütləvi şikayətlər də olmur. Ona görə də belə dələduzlar istədikləri kimi insanları aldada bilirlər”.

“BÜTÜN ÇƏTİN ANLARIMDA ONUN VARLIĞINI MÖCÜZƏVİ ŞƏKİLDƏ HİSS EDİRƏM”

# ÖLKƏMƏ ATAM QƏDƏR FAYDALI OLMAQ İSTƏYİRƏM

**Milli Qəhrəman İlqar Mirzəyevin qızı Gülnarə Mirzəyeva:** “Atam heç vaxt işini evə gətirməzdi. Nə qədər yorğun, gərgin olsa da, bizə onu hiss etdırmirdi. Münasibətlərimiz tam fərqli idi”.

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



“Bakalavr təhsilini xaricdə almaq istəyirdim. Lakin maliyyə baxımından bunu reallaşdırmaq mümkün deyildi. Atam o vaxt mənə söz verdi ki, səni magistratura təhsili üçün mütləq xaricə göndərəcəyəm. Bakalavrı bitirəndə xaricdə təhsil üçün dövlət proqramı elan edildi və atamla arzumuz reallaşdı. İnanıram ki, atam yenə də yanımda idi və bu məsələni o həll etdi. Çünki mən bütün çətin anlarımda onun varlığını möcüzəvi şəkildə hiss edirəm”. Bu sözlər Azərbaycanın Milli Qəhrəmanı, şəhid polkovnik İlqar Mirzəyevin qızı Gülnarə Mirzəyevaya aiddir. O, İngiltərənin nüfuzlu universitetlərindən “Warwick Business School”un magistr pilləsini uğurla başa vurub və vətənə qayıdıb.

### HUMANİTAR FƏNLƏRİ BƏZƏN VALİDEYNLƏRİM OXUYUR, MƏN DİNLƏYİRDİM

Hərbçi ailəsində böyüdüyü üçün üç məktəb dəyişib. Orta təhsilinə Naxçıvanda başlayıb, Beyləqanda davam edib, Bakıda bitirib. Ali təhsilini isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti - iqtisad fakültəsində, sənayenin təşkili və idarə olunması ixtisası üzrə davam etdirib və fərqlənmə ilə bitirib.

Həmsöhbətimiz deyir ki, ailəsi onların təhsilinə çox önəm verib. Hətta çətinlik çəkdiyi humanitar fənləri ata-anasının səsindən dinləyib, öyrənib: “Humanitar fənləri öyrənə bilmirdim və sevmirdim. Yadımdadır ki, atam saatın neçə olmasından asılı olmayaraq, işdən gələn kimi anamla birlikdə tarix kitabını açır, cümlə-cümlə oxuyurdular ki, öyrənə bilim. Onlar oxuyurdu, mən dinləyirdim. Təhsillə bağlı nədə çətinlik çəkirdiksə, ailəvi oturub, iclas edib, həll edirdik”.

### “ATAM HEÇ VAXT İŞİNİ EVƏ GƏTİRMƏZDİ”

Hərbçi ailəsinin sərt qayda-qanunlarının olduğunu deyirlər. Gülnarə deyir ki, onların ailəsi ilə bağlı da hamı elə düşünüb: “Atam heç vaxt işini evə gətirməzdi. Nə qədər yorğun, gərgin olsa da, bizə onu hiss etdirmirdi. Şəhid olandan sonra əsgərləri, zabit yoldaşları onun haqqında bizə danışırdılar, mən bəzən təəccüblənirdim ki, atamdan danışırlar? Təbii ki, bilirdim çox nizam-intizamlıdır. Amma mənə qarşı o qədər yumşaq idi ki... Hərbçi ailəsinin əsas çətinliyi odur ki, onlar ailələrindən uzaq olurlar. Atam şəhid olmazdan əvvəl biz beş il idi ki, bir evdə deyildik. Ancaq bayramlarda, tətillərdə hər fürsətdə atamın yanına gedirdik. Hər gün danışırdıq, amma tez-tez görmürdük”.

> *“Atamın adına layiq övlad olmaq borcumuzdur. Nə xoş mənə ki, onun arzularını reallaşdırıram. Mən fəxr edirəm ki, elə bir atanın qızıyam!”*



### “QARDAŞIMIN STATUSUNU OXUDUQDA, KÖVRƏLDİM”

Həmsöhbətimiz İngiltərəyə Elm və Təhsil Nazirliyi tərəfindən nəzərdə tutulmuş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” ilə gedib. İlk dəfə ailəsindən uzaq olduğu üçün orada bir müddət təhlükə çəkdiyini deyir. Qardaşının onun haqqında yazdığı statusu oxuduqda isə qürur hissi ona bütün çətinliklərini unutdurub: “Həm ailəmdən uzaq idim, mühit fərqli idi, həm də dərslər çətin idi. Amma ailəmin, qardaşımın dəstəyini həmişə hiss edirdim. Qardaşımla münasibətimiz hər bacı-qardaşda olduğu kimi idi. Həmişə sözümüz çəp düşür, dalaşırdıq. Amma onun mənim haqqımda yazdığı statusu oxuduqda, kövrəldim. O sözlər qardaşımla münasibətlərimdə tam başqa mərhələnin başlanğıcıdır”.

**FOTOLAR:**
Rüfət Mikayılov / Global Media Group










### “ÖZ MƏSULİYYƏTİNİ ÖZÜN DƏRK ETMƏLİSƏN”

Müsahibimiz vurğulayır ki, təhsildən əlavə, İngiltərədəki qrup dərsləri gələcək fəaliyyəti üçün yaxşı təcrübədir: “Fərqli qruplara bölünür, təqdimatlar, məqalələr hazırlayırdıq. Bu, çox faydalıdır. Çünki biz məzun olandan sonra gələcək iş yerimizdə hər hansı komandanın parçası olacağıq. Təhsil pilləsində komanda işini inkişaf etdirmək çox faydalıdır. Dərslər bizim təhsil sistemimizdən çox fərqlidir. Müəllimlər tələbkardır, amma əsas yük sənin üstündədir. Müəllim dərslərini izah edir, sualınıza cavab verir və işi bitir. Öz məsuliyyətini özün dərk etməlisən. Ən əsası, sənə uşaq kimi deyil, yetkin insan kimi davranır, fikirlərinə əhəmiyyət verirlər”.

### “DADLI PLOVUN HƏSRƏTİNİ ÇƏKİRDİM”

Gülnarənin qürbətdə ən böyük çətinliyi yeməklərlə bağlı olub: “Londonda ən çox yeməklərimiz üçün darıxırdım. İngiltərə təbiəti, tarixi binaları ilə məşhur olsa da, mətbəxlərini sevmirdim. Hətta Azərbaycan restoranında belə, həmin dadı almırdıq. Plovu çox sevirəm və dadlı plovun həsrətini çəkirdim. Gələn kimi anam mənə plov bişirmişdi”.

Xaricdə təhsil alan gənclərin bəziləri orada iş tapıb, karyeralarını əcnəbi ölkədə davam etdirməyi arzulayırlar. Gülnarə deyir ki, onun heç vaxt belə planı olmayıb: “Atam həmişə deyirdi ki, biz hərbçiyik, ölkəni səngərlərdə qoruyuruq, siz də öz peşənizlə bu ölkəyə xidmət etməlisiniz. Atam bu vətən uğrunda canını verib. Mən də bu vətəndə xidmət etməli, ölkəm üçün faydalı olmalıyam. Öz ölkəmə ən az atam qədər faydam olsun istəyirəm”.

### MİLLİ QƏHRƏMANIN QIZI OLMAQ...

Gülnarə deyir ki, Milli Qəhrəmanın qızı olmaq həm fəxr, həm də çox böyük məsuliyyətdir: “Atam bizimlə sərt davranmırdı, amma onun övladı olduğumuzun məsuliyyətini dərk edirdik. O, Milli Qəhrəman olduqdan sonra bu nizam-intizam davam etdi. Artıq tək deyildik və bilirdik ki, xalqın da gözü üzərimizdədir. Atamın adına layiq övlad olmaq borcumuzdur. Nə xoş mənə ki, onun arzularını reallaşdırıram. Mən fəxr edirəm ki, elə bir atanın qızıyam!”

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# "Vətəni sevmək insanın QANINDA OLMALIDIR"



## Xalq şairi Vahid Əziz: "Utandığım odur ki, atam və anamdan çox nazımı çəkən müəllimlərimi bəzən dəyərləndirməmişəm. Sizə sevgi göstərən insanı həmişə dəyərləndirin".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Vaxt nisbi şeydir. Kimin üçünsə bir saat an kimi, kimin üçünsə bir il kimi keçir. Hər uğur vaxtı səmərəli keçirməkdən asılıdır. Gərək elə yaşayasan ki, həyatında keçən vaxtdan nəsə qalsın..."

Xalq şairi Vahid Əzizin "Məktəbdə" layihəsində qonaq olarkən dilə gətirdiyi bu fikirlər məktəblilər üçün əhəmiyyətli tövsiyə kimi səsləndi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin birgə reallaşdırdığı layihənin Qaradağ rayonunun Qobustan qəsəbəsindəki 321 nömrəli tam orta məktəbdə baş tutan görüşündə məktəb və müəllimin insan həyatındakı rolu, mənəvi-əxlaqi dəyərlərə hörmət, mütaliə mədəniyyəti, müəllim-şagird münasibətləri və s. kimi vacib məsələlərə də toxunuldu.

### "MƏKTƏB ZİRVƏLƏRƏ GEDƏN PİLLƏDİR"

"Demək olar ki, 80 yaşınızı haqlamısınız. Ömür yolunda yaşanan günlərin və illərin əhəmiyyətli keçməsi üçün şagirdlərə nə tövsiyə edərdiniz?" - deyə auditoriyadan ünvanlanan ilk suala Xalq şairi "Mənim də həyatda səhvlərim olub və indi düşünəndə onlara görə hərdən utanıram", - deyə cavab verdi: "Məsələn, bəzən nəvələrim dil, qrammatika, kimya və sairlə bağlı suallar verəndə cavablandıra bilmirəm. Bunlar hansısa dərsə gəlməyəndə və ya tapşırılanda öyrənmədiklərimdir. Ona görə elə oxuyun ki, gələcəkdə övladlarınız sual verəndə utanmayasınız. Mən ən çox fizika və astronomiya fənlərini sevmişəm, riyaziyyatla o qədər aram olmayıb. Ədəbiyyat da sevimli fənnim olub. Rus dilində oxumuşam, amma Azərbaycan dilini yaxşı bilmişəm. Heydər Əliyev o zaman məni Mərkəzi Komitədə işə qəbul etdi. Savadlı adam özünə arxayın və cəsarətli olur. Siz də cəsarətli və savadlı olmaq üçün çox oxuyun. Məktəb zirvələrə gedən pillədir, qalan elmləri həyat öyrədir".

### VƏTƏN SEVGİSİNİ İFADƏ ETMƏK ÜÇÜN...

"Vətən sevgisini sadəcə şeir dili ilə ifadə etmək olurmu?" - deyə şagirdlərdən birinin sualına V.Əziz belə cavab verdi: "Təbii ki, vətən sevgisi şeirlə ifadə olunur. Müharibə başlayandan on gün qabaq bir yuxu gördüm: Tərtərdə evimizin yanındakı arxdan su axırdı. Mən bir şeir yazdım: "Su bir də gələcək su gələn arxa". Sonra müharibə başladı. Mən müharibə, vətənpərvərlik mövzusunda yazdığım şeirləri "Param-parça illər" adlı kitabda topladım. Bu kitab müharibə gündəliyidir. Vətən sevgisini ifadə etmək üçün gərək vətəni yaxşı tanıyasan, onun dilini sevəsən. Vətəni sevmək insanın qanında olmalıdır. Bu gün Azərbaycan xalqı onunla qürur duya bilər ki, ermənilərlə mübarizə aparan, döyüşən, şəhid olan Vətəni sevən cəsarətli insanları var. Şəxsiyyətinizi elə formalaşdırın ki, özünüzü Vətənin sahibi kimi görəsiniz. Onda Vətəni qorumağı da, sevməyi də bacaracaqsınız. Həyatda layiq olduğunuz yeri bilin və özünüzü saydırmağı bacarın. Həmişə sadə olun və adiləşməyin. Sadəlik insanın gözəlliyidir".

### "MƏKTƏB XATİRƏLƏRİ İNSANI YAŞADIR"

"İlk şeirinizi nə vaxt yazmısınız?" sualı şairi gəncliyinə qaytardı: "İlk şeirimi Politexnik İnstitutunun 2-ci kursunda oxuyanda qələmə almışam. Amma ona qədər yaxşı mütaliəm vardı, ədəbiyyatı yaxşı bilirdim. Hərdən düşünürəm ki, Nizaminin, Füzulinin, Nəsiminin, Xaqaninin, Məhəmməd Hadinin bu qədər dərin və poetik şeirlərinin olduğunu bilsəydim, əlimə qələm almazdım. Amma 22 yaşımda ilk şeirimi yazandan sonra Rəsul Rza "Vahid Əzizin şeirləri qibtə oyadacaq qədər poetikdir", - deyə rəy bildirdi. Ondan sonra şeirlərim sıralandı..."

"Məktəb illəri necə yadınızda qalıb?" sualı isə şairin uşaqlıq xatirələrini oyatdı. "Qərbi Zəngəzurdan, Dərələyəzdən köçüb gələndə 6 yaşım vardı.1951-ci il idi", - deyə xatırladı: "Atam rayon partiya komitəsi katibinin müavini idi. Məni məktəbin Azərbaycan bölməsinə yazdılar. İlk dərs günü dəhlizdə qaçışan uşaqları gördüm. Çox səliqəli geyinmişdilər. Onların arxasınca gedib oxuduqları sinfə daxil oldum. Bu sinif rus bölməsi idi. Beləcə rus dilində təhsil almalı oldum. Uşaqlardan fərqlənirdim. Təyyarə maketləri düzəldirdim. Məktəb xatirələri insanı yaşadır. Bəzən ata-ana evdə uşağın nazını çəkmir, amma məktəbdə müəllimlər sizin qayğınıza qalırlar. Mənim də utandığım odur ki, atam və anamdan çox nazımı çəkən müəllimlərimi bəzən dəyərləndirməmişəm. Sizə sevgi göstərən insanı həmişə dəyərləndirin. Gələcəkdə sizin içərinizdən deputat da çıxacaq, məmur da. Çalışın, nə vaxtsa vəzifə sahibi olanda yanınıza gələn insanların qayğısına qalasınız".

### ŞAİRLƏR VƏ ŞEİR YAZANLAR

"Şeirlərinizi özünüz oxuyanda daha çox xoşunuza gəlir, yoxsa başqalarının ifasında?" - deyə soruşan şagirdə qonaq "Şeir sakit oxunmalıdır. Şeir qələm adamıyla kağız arasında pıçıltıdır", - deyə cavab verdi: "Şeirdə müqəddəs kədər olmalıdır. Bir də ədəbiyyatda və sənətdə elitarlıq var. Ədəbiyyatda da, incəsənətdə də hamı üçün və yüksək zövq üçün fərqlər var. Bir var şeir yazanlar, bir də var şairlər".

"Dünya sürətlə dəyişir. Sizcə, şeir müasir zamanın tələbi ola bilərmi?" - deyə ünvanlanan suala "Vladimir Mayakovski yazırdı ki, əgər hər gecə göydə ulduzlar yanırsa, demək bu, kiməsə lazımdır. Mən də hərdən düşünürəm ki, əgər Ramiz Rövşən, mən və ya başqa qələm dostlarımız yazırıqsa, demək, bunlar kiməsə lazımdır. Şeirlə dünyanı dəyişmək olmur, amma bədii əsərlər insanlara həyatlarını dəyişməyə kömək edir", - deyə cavab verdi.

"Bugünkü gənclik haqqında fikirləriniz necədir?" - deyə məktəblilərdən biri maraqla soruşdu. "Hazırkı gənclikdən çox razıyam", - deyə Xalq şairi fikrini bildirdi: "Qarabağ müharibəsində kimlər döyüşdü? Gənclər. Əgər bu gün yaşlı insanlar gənclərdən şikayətlənirsə, demək, özləri hardasa səhvə yol veriblər. Bu gün ucqar kənddən gələn uşaq beynəlxalq olimpiadada qızıl medal qazanır. O, azərbaycanlı balasıdır. Mən qürur duyuram ki, Azərbaycanın çox intellektual gəncliyi yetişir..."





BU SEKTORUN İNKİŞAFI ÜÇÜN MÜƏYYƏN ADDIMLARIN ATILMASINA EHTİYAC VAR

# Qeyri-neft ixracımız NİYƏ AZALIB?




**Qeyri-neft ixracımızda bu ilin ilk ayında ciddi azalma müşahidə edilib. Ekspertlər düşünürlər ki, il hələ yeni başlayıb. Azalma həm mövsümi, həm də digər amillərlə bağlı ola bilər.**



**ZƏRİF SALMANLI**
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar ayında Azərbaycanın ümumi ixracının dəyəri 1,8 milyard ABŞ dolları, o cümlədən qeyri-neft sektoru üzrə ixracın dəyəri isə 222 milyon ABŞ dolları təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 22 faiz azalıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi xəbər verir. Qeyri-neft sektoru üzrə ixracın belə ciddi şəkildə azalması təbii ki, narahatlıq doğurmalıdır. Bəs bu azalmanın səbəbləri nədir?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, qeyd edilən azalma aylıq göstəricidir: "Nəticə çıxarmaq üçün daha çox yarım illik və illik dövrlərə baxılması vacibdir. Aylıq azalma daha çox mövsümi faktorlarla bağlıdır. Mövsümi faktorlar müəyyən aylarda qeyri-neft ixracatının həcminə təsir edir. Həm də nəzərə almalıyıq ki, regionda əvvəlki illərdə müşahidə olunan inflyasiya səviyyəsi ümumi qeyri-neft ixracının dəyərinə təsir göstərirdi".



Vüqar Bayramov

Foto: Firudin Səlimov -Global Media Group

### "ÖTƏN İL ON FAİZ ARTIM MÜŞAHİDƏ ETDİK"

Millət vəkilinin fikrincə, qeyri-neft ixracının artırılması ölkəmiz üçün çox vacibdir: "Çünki 2026-cı ilədək qeyri-neft ixracının həcminin 5 milyard dollara çatdırılması hədəflənib. Həmçinin qeyri-neft ixracı ölkəmizə daha çox valyutanın daxil olmasına zəmin yaradır. 2023-cü ilin yekunlarında qeyri-neft ixracında 10 faizə yaxın artım müşahidə etdik. Azərbaycana ixracdan daxil olan vəsaitin əhəmiyyətli hissəsi neft sektorunun payına düşür. Bu baxımdan qeyri-neft ixracının artırılması çox vacibdir. Qeyri-neft məhsullarının ixracındakı əsas hədəf illik artıma nail olmaqdır. Xüsusən də nəzərə almalıyıq ki, qeyri-neft ixracının bir hissəsi kənd təsərrüfatı məhsullarıdır. Ona görə də düşünürəm ki, mart ayından etibarən bu istiqamətdəki artımları müşahidə edəcəyik".

### "BEYNƏLXALQ STANDARTLAR TƏTBİQ EDİLMƏLİDİR"

V.Bayramov bildirdi ki, bu sektorun inkişafı üçün müəyyən addımların atılmasına ehtiyac var: "Qeyri-neft ixracının artırılması üçün beynəlxalq standartların tətbiqinə ehtiyac duyulur. Azərbaycanda aqrar sektorda çalışan sahibkarlar məhz standartların tam olaraq tətbiq edilməməsinə görə ixracda müəyyən çətinliklər yaşayırlar. Xüsusən bunu nəzərə almalıyıq ki, Azərbaycanda qeyri-neft ixracının təxminən 60 faizi iki ölkənin payına düşür. Standartların tətbiq edilməsi həm də qeyri-neft ixrac bazarlarının şaxələndirilməsi baxımından vacibdir. Ümumdünya Ticarət Təşkilatına üzvlüyün sürətləndirilməsi məqsədəuyğundur. Bu, yalnız daxili bazar deyil, həmçinin ixrac baxımından yeni imkanlardır. İxrac üçün baryerlərin minimumlaşdırılması da qeyri-neft sektorunda çalışan sahibkarların ixrac imkanlarını genişləndirə bilər".

## Şaquli diversifikasiya

İqtisadçı Rəşad Həsənov düşünür ki, azalma qeyri-yeyinti sənayesi məhsulları üzrə baş verib: "Bu kateqoriyaya əsasən elektrik enerjisi, mədən sənayesi, eyni zamanda polimer tərkibli məhsullar daxildir. Düşünürəm ki, bu, xroniki hal deyil. Müəyyən müəssisənin fəaliyyətində müşahidə olunan texniki nöqsandan da qaynaqlana bilər. Eyni zamanda, hansısa müəssisənin məhsullarına idxalçı ölkədən gələn tələbin azalmasını da səbəb kimi görmək mümkündür".

R.Həsənov dedi ki, bu sahədə imkanlar azdır: "Qeyri-neft ixracının şaxələnməsi üçün böyük baza yoxdur. Son dövrlərdə kənd təsərrüfatı, yeyinti sənayesi məhsulları, sənaye parklarında yaradılmış xüsusi iqtisadi zonalarda istehsal olunan məhsullar və xammal olaraq neftdən istifadə olunmuş məhsullardan istehsal edilən mallar ixrac olunur. Bu hallar bizə orta və uzunmüddətli dövrdə böyük iqtisadi ixrac bazasının formalaşması ehtimalının aşağı olduğunu göstərir. Bu istiqamətdə üfüqi deyil, şaquli diversifikasiya müşahidə olunur və neft sənayesinin müəyyən qədər şaxələndirilməsi ilə bu sahədə nəticələrin əldə edilməsinə çalışılır".



Rəşad Həsənov

Ekspertin sözlərinə görə, belə davam edərsə, iqtisadiyyatımız üçün təhlükə yarana bilər: "Azərbaycanın qeyri-neft ixracının azalması arzuolunan deyil. Çünki bu azalmanın kifayət qədər böyük fəsadları ola bilər. Xüsusilə nəzərə alsaq ki, karbohidrogen bazarında qiymətlər sabit deyil və rəqəmlər Azərbaycanın iradəsindən kənarda formalaşır. Bu, ölkə iqtisadiyyatını xarici hücumlara açıq edir. İşğaldan azad olunmuş ərazilərin bərpası ilə əlaqədar olaraq dövlət xərcləmələri də artıb. Belə bir şəraitdə iqtisadiyyatımızda fundamental islahatların aparılmasına ehtiyac var. İqtisadiyyat açılmalı, liberallaşdırılmalıdır. Azərbaycan xarici iqtisadi bloklara qoşulmalıdır".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 388
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# HƏYATIMIZI RİSKƏ ATAN SÜRÜCÜLƏR

Narkotik istifadəçiləri üçün pul qazanmağın ən rahat yolu gündəlik maşın kirayələyib taksi fəaliyyəti ilə məşğul olmaqdır. Çünki belə təsəvvür var ki, heç kim maşını verərkən onları tibbi müayinədən keçirmir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



"Kim bilir nələr olacaqdı?! Ata yolu gözləyən hansı övlad atasız qalacaqdı?! Neçə can, neçə tale xilas edildi?! Bilmirik! Fakt, olacaq haqqında təsəvvür yaradır. Masallı rayonunda yol polisi "Mitsubishi" markalı avtomobili nəzarət qaydasında saxlayır. Sürücü qəti etiraz edir: "Sənədlərim var, dilimə spirtli içki dəyməyib, sərxoş deyiləm...". Sürücü haqlı idi, düz deyirdi, spirtli içki qəbul etməmişdi. Lakin məlum olur ki, ağır dərəcəli narkotik vasitələrin təsiri altındadır". Bu status Daxili İşlər Nazirliyin (DİN) Mətbuat Xidməti İdarəsinin rəisi Elşad Hacıyevə məxsusdur və bu hadisə 2021-ci ildə olub.

### İNSANLAR NÖVBƏTİ FACİƏDƏN SIĞORTALANIBMI?

Üzərindən üç ilə yaxın vaxt keçib, lakin narkotik vasitələrin təsiri altında olan sürücülər hələ də ciddi təhlükə mənbəyidirlər. DİN-nin son vaxtlarda yaydığı görüntülərdə bu sürücülərin necə "cəsarət"lə avtomobilini digər avtomobillərin üzərinə sürməsinin, əks yolda hərəkət etməsinin, işıqforun qırmızı işığında keçməsinin, polisin "dur" əmrinə tabe olmamasının, avtomobilini yolda saxlayıb qaçmasının şahidi oluruq. Məsuliyyətsiz sürücülər günahsız insanların həyatına təhlükə yaradır, dəhşət saçırlar. Yəni bu gün də qaydalara riayət edən, evinə, işinə tələsən insanlar yollarda narkotik istifadəçisi olan sürücülərlə rastlaşmaqdan sığortalanmayıblar. Amma onların hamısını aşkarlamaq mümkündürmü? İnsanlar növbəti faciədən sığortalanıbmı?

Məlumat üçün bildirək ki, DYP-nin narkotik istifadəçisi sürücülərlə mübarizəsinə mane olan əsas problemlərdən biri yol polisinin qaydanı pozmayan sürücünü saxlaya bilməməsidir. Şübhə yaradacaq hallar olduqda, qayda pozulduqda, polis sürücü ilə həmsöhbət olur və faktı aşkarlaya bilir.

Bəs narkotik istifadəçiləri qayda pozmadan, təhlükə yaratmadan avtomobil idarə edə bilərlərmi? Spirtli içki qəbul edərkən, hərəkətindən bilinməsə belə, qoxusundan hiss etmək olur, bəs narkotik istifadəçilərini necə?

### NARKOTİK İSTİFADƏÇİLƏRİ ÜÇÜN PUL QAZANMAĞIN YOLU

Ekspert Emil Maqalov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, narkotik istifadəçiləri işlədiyi yerlərdən bu vərdişlərinə görə azad olunduqları üçün pul qazanmağın yolunu sərnişindaşımada görürlər: "Onlar üçün pul qazanmağın ən rahat yolu gündəlik maşın kirayələyib taksi fəaliyyəti ilə məşğul olmaqdır. Çünki heç kim maşını verərkən onları tibbi müayinədən keçirmir. Fiziki görünüşə gəldikdə isə, narkotik istifadəçilərinin fiziki görünüşündən əksər vaxtlar bunu hiss etmək olmur. Hazırda fəaliyyət göstərən taksi şirkətlərində də narkotesterlərdən istifadə olunmadığı üçün bu işi rahatlıqla həyata keçirə bilirlər".

### HƏR GÜN TEST GÖTÜRÜLMƏLİDİR

Problemin həll yoluna gəldikdə isə, mütəxəssis bildirir ki, hər şəhərin, rayonun nəqliyyat departamenti tez cavab verə biləcək testlərdən istifadə etməli, sürücülərin gündəlik testlərdən keçməsini təmin etməlidir: "Narkotik istifadəçiləri üç növ narkotik vasitələrdən istifadə edirlər. Elə narkotik maddə var ki, qanda və sidikdə 24 saat, eləsi var ki, bir həftə, eləsi də var ki, bir ay qalır. Buna görə də sərnişindaşıma ilə məşğul olan sürücülərdən hər gün test götürülməlidir".

Mütəxəssis vurğulayır ki, həmçinin DYP də qanuna əsasən, hər hansı bir sürücünü saxladıqda, eynən spirtli içki yoxlanışında istifadə olunan alətlər kimi tez cavab verə biləcək narkotesterlərdən istifadə etməlidir. Narkotik istifadəçisi bilsə ki, belə testlər mövcuddur və dərhal aşkarlanırlar, məcburi şəkildə istifadə etməyəcək, etsə belə, sükan arxasına keçməkdən çəkinəcək. Problemin həll yolu yerindəcə yoxlaya bilən narkotesterlərin tətbiqidir".

## ƏN YAXŞI YOL İCTİMAİ MÜBARİZƏDİR

Millət vəkili Fazil Mustafa düşünür ki, narkotik istifadəçisi olan sürücülərdən xilas olmağın ən yaxşı yolu ictimai mübarizədir: "Sürücülərin narkotik maddələrdən istifadə etməsini müəyyənləşdirmək xeyli çətindir. Hər yolda avtomobil idarə edən sürücünü saxlayıb, yoxlamaq mümkün deyil. Aşkarlamaq üçün cəmiyyətdən 102 qaynar xəttinə məlumatlar daxil olmalıdır. Məsələn, kiminsə qonşusu, qohumu narkotik istifadəçisidir və avtomobil idarə edirsə, anonim şəkildə polisi bilgiləndirməlidir. Çünki narkotik istifadəsinin təsiri ilə sükan arxasında oturan hər bir sürücü başqalarının həyatına ciddi təhlükədir".

Nəqliyyat eksperti Bulud Bağırov isə deyir ki, narkotik istifadəçisi sürücülərin sayının artmasının səbəbi taksilərin sayının çoxluğudur: "Maşın sürməyi bacaran, bacarmayan hər kəs gündəlik 30 manata avtomobil icarəyə götürüb yollarda təhlükə yaradır. Bunun qarşısını almaq üçün ictimai nəqliyyatı gücləndirmək lazımdır. İctimai nəqliyyatda da hər reysə çıxan sürücü həkim müayinəsindən keçməlidir. Bu, həm tıxacların sayını azaldacaq, həm də çıxış yolunu taksi fəaliyyəti ilə məşğul olmaqda görən narkotik istifadəçilərinin sayına təsir edəcək".

### BƏS HÜQUQ NƏ DEYİR?

Hüquqşünas Sabir Qəniyev deyir ki, "Avtomobil nəqliyyatı haqqında" qanuna əsasən, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və ya tibb məntəqəsi ilə müqavilələri mövcud olmalıdır: "Sözsüz ki, sürücü reysqabağı tibbi müayinədən keçdikdən sonra spirtli içki və ya narkotik vasitəsi qəbul edərək fəaliyyətini davam edə bilər. Lakin spirtli içki və ya narkotik vasitəsi qəbul etdikdən sonra sürücü növbəti gün tibbi müayinədən keçdiyi zaman həmin vasitələrdən istifadə edilmə barədə məlumatlar dərhal müəyyən edilir. Bunun üçün də sərnişindaşıma ilə məşğul olan hər bir sürücü qanunvericiliyə əsasən, hər gün tibbi müayinədən keçməlidir".

Mütəxəssis bildirir ki, İnzibati Xətalar Məcəlləsinə əsasən, nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə altı yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır: "Problem sərnişin daşımaları üçün verilən buraxılış vərəqələrinin taksi sürücülərinin bir çoxu tərəfindən əldə edilməməsidir. Buraxılış vərəqəsi olmadıqda, "Lisenziyalar və icazələr haqqında" qanunun tibbi müayinə ilə bağlı tələblərinin həyata keçirilməsi mümkünsüz olur. Problemin həll yolu kimi bu vərəqələrin əldə edilməsinə ciddi nəzarətin olmasıdır".

Qeyd edək ki, bu həftə sonu Bakıda fəaliyyət göstərən taksi sürücülərinin kütləvi şəkildə narkoloji testdən keçirilməsi barədə məlumatlar yayılıb.



Emil Maqalov

Fazil Mustafa

Sabir Qəniyev

Foto: Rüfət Mikayılov/Global Media Group

# GÖZƏL AKTYOR, UĞURLU QƏLƏM ADAMI

Üzündə təbəssüm, əməlində xeyirxahlıq, davranışında əxlaq, işində ciddiyyət olan aktyor. Xalq artisti, Akademik Milli Dram Teatrının mərhum aktyoru Ramiz Novruz haqqında söz düşəndə sənət yoldaşları onu belə xatırlayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Nə qədər Azərbaycan tamaşaçısı var, o yaşayacaq və daim xatırlanacaq. Həm gözəl aktyor, həm də uğurlu qələm adamı kimi..."

Xalq artisti, Akademik Milli Dram Teatrının mərhum aktyoru Ramiz Novruz haqqında söz düşəndə sənət yoldaşları onu belə xatırlayırlar. Üzündə təbəssüm, əməlində xeyirxahlıq, davranışında əxlaq, işində ciddiyyət olan aktyoru "Kaspi" də (fevralın 21-i anım günüdür) həmkarlarının xatirələri ilə andı.

## SƏHHƏTİ İLƏ BAĞLI ŞİKAYƏTLƏNMİRDİ

Teatrın ağsaqqalı, Xalq artisti Rafiq Əzimov xatırlayır ki, Ramiz Novruzun teatra gəlişindən dünyadan köçdüyü günə qədər fəaliyyəti gözünün qabağında keçib: "O, həddən artıq sənətsevər, böyük bir eşqlə məşqlərə tələsən, hər bir rolun üzərində ciddi işləyən, müxtəlif xarakterli rolları böyük peşəkarlıqla yaradan aktyor idi. Səhnədə Ramiz Novruzla bir neçə tamaşada tərəf-müqabil olmuşam. Hər dəfə onunla bir səhnədə oynamaqdan böyük zövq almışam. Çünki sənin qarşındakı nə qədər ciddi aktyor olsa, nə qədər müsbət yanaşsa, tərəf-müqabil də ondan çox ilham alır və  ümumi tamaşanın gedişatına müsbət qiymət verir". R.Əzimov deyir ki, Ramiz Novruz istedadlı aktyor olmaqla bərabər, dramaturgiya ilə məşğul olan qələm adamı olub: "Onun yazdığı pyeslər bu gün də tamaşaçıların və yaradıcı heyətin qəlbində yaşayır. Ağlımıza gəlməzdi ki, belə bir sağlam və istedadlı aktyor tez bir zamanda bizi tərk eləsin. Biz ondan heç vaxt səhhəti ilə bağlı şikayət eşitməmişdik. Təəssüf ki, belə bir insanı itirdik. O, yaddaşımızda yalnız müsbət bir insan kimi qaldı. Hazırda oğlu Cavidan bizimlə bir səhnədə irili-xırdalı rollarda çıxış edərək atasının yolunu davam etdirir. Bu, az da olsa bizə təsəllidir".

## SƏHNƏDƏ ONUNLA SAVAŞMAQ BÖYÜK ZÖVQ İDİ

"Biz Ramizlə tələbə yoldaşı olmuşuq, eyni kursda oxumuşuq. Adil İsgəndərovdan dərs almışıq. Təyinatımızı fərqli yerlərə aldıq. Sonradan Ramiz də Sumqayıt teatrından "Azdrama"ya gəldi və bir yerdə çalışdıq", - deyə Xalq artisti Nurəddin Mehdixanlı xatırlayır: "Ramiz vəfat etdiyi günə qədər bir yerdə çalışmışıq. O, əksər tamaşalarda tərəf-müqabilim olub. Ramiz çox mütaliəli, istedadlı, peşəsinin ustası olan aktyor idi. Həm də Ramizin qələmi, yazmağı vardı. Bir neçə pyesin müəllifi idi. Onun ən məşhur pyesi "Hələ sevirəm deməmişlər"idi. Bu əsərə Bəhram Osmanov quruluş vermişdi. O tamaşa bizim teatrın ən uğurlu və ən çox qastrol səfərinə çıxan tamaşalarından oldu. Əsər Qarabağ savaşı ilə bağlı idi. Mən də ən uğurlu və çox sevdiyim rollarımdan birini bu tamaşada oynayırdım. Ramiz özü də o tamaşada rol almışdı. "Atabəylər", "Od gəlini", "Aydın" tamaşalarında da tərəf-müqabil idik. Ramiz Azərbaycan teatrı və kinosunda öz imzasını qoymuş böyük aktyorlarımızdan idi". N.Mehdixanlı deyir ki, mərhum aktyorun kinoda da rolları uğurlu alınmışdı: "Çox vaxt Ramiz Novruz adı gələndə elə Həzi Aslanov deyirdilər. Həyat bəzən gözlənilməz hadisələr yaradır. Ramiz xəstələndi və təəssüf ki, bizdən ayrıldı. Ən xoşbəxt aktyor odur ki, səhnədə onun qarşısında güclü aktyor var. Səhnədə toqquşmağa, savaşmağa qarşısında güc var. Ramiz Novruz həmin aktyorlardan idi ki, səhnədə onunla savaşmaq böyük zövq və uğur idi. Mən çox xoşbəxtəm ki, uzun illər Ramiz Novruzla bir səhnədə olmuşuq".

## ÇƏKDİYİ ƏZABI ÜZÜNDƏ GÖRDÜM

Əməkdar artist Sənubər İsgəndərli mərhum sənət yoldaşını tamaşaçıların sevimli aktyoru kimi xatırlayır: "Ramiz müəllim mənim də sevimli həmkarım, dostum idi. Dəfələrlə bir səhnədə tərəf-müqabil olmuşuq. Saysız-hesabsız tədbirlərdə birgə iştirak etmişik. Hər dəfə də onda özümə və insanlara qarşı bir istilik görmüşəm. O, səhnədə özünü önə çəkən aktyorlardan deyildi, mənəm-mənəmliyi yox idi. Pafosdan uzaq idi, həm səhnədə, həm də həyatda... Bərbəzəkli sözləri sevməzdi, tək öz roluna yox, ümumi tamaşaya xələl gəlməsin deyə işinə, oynadığı rollara çox ciddi yanaşırdı. Mən ondan həmişə dost kimi məsləhət alardım. Ürəyi təmiz, üzügülər insan idi. Adamı hər dəfə görəndə əllərini yana açıb qucaqlamaq istəyirmiş kimi gülürdü. Həmişə ondan belə istiliyi gördüm. Son işimiz Yuri Polyakovun "Sinif yoldaşları" tamaşası idi. Onda səhhəti yaxşı deyildi. Səhnə arxasına çıxanda görürdüm ki, onu tərsu aparır. "Hər şey yaxşıdır, mənə fikir vermə" deyirdi. O vəziyyətdə də tamaşanı düşünürdü".



## Əsl Azərbaycan kişisi

Ramiz Novruz kinorejissor Yavər Rzayevin "Sarı gəlin" filmində hərbi hissənin komandiri Rasim rolunu oynayıb. İndi Yavər Rzayev "onun haqqında danışanda kövrəlirəm", - deyir: "İstər Ramiz Novruz, istərsə də Nurəddin Mehdixanlı ilə çoxdan tanışam. Mən İncəsənət Universitetində oxuyanda onlar yeni qurtarmışdılar. Amma bizim görüşlərimiz olurdu. Mən sonra Moskvaya getdim və qayıdanda "Sarı gəlin" filmini çəkməyə başladım. Bu, rəmzlərlə danışan bir filmdir. Cəsur Azərbaycan kişisi obrazı haqqında çox düşünürdüm. O rolu sınaqsız Ramizə təklif etdim. Bu film 90-cı illərdə çəkilməyə başladı. Sərhəddə dayanan əsgərlər gəlib bizə kömək edirdilər. Film çətin şəraitdə çəkilirdi. Filmdə ağır səhnələr vardı - tanklar, atəşlər... Çəkilişlərdə kaskadyordan istifadə edilmədi. Hamısını aktyorlar özləri edirdilər. Ramizin zahiri və daxili etik normaları əsl Azərbaycan kişisinə xas idi. İndi təəssüflənirəm ki, son zamanlar əlaqəmiz yox idi..."

Rejissor Bəhram Osmanov mərhum aktyoru işinə münasibətdə dəqiq, nizam-intizamlı, məsuliyyətli insan adlandırır: "Ramizlə bir neçə tamaşada işləmişəm. Ədəbiyyata marağı yaxşı olduğundan onun iki tamaşasını hazırlamışam. Gəncə Dram Teatrında "At ilinin birinci ayı" və Milli Dram Teatrda "Hələ sevirəm deməmişlər" tamaşaları... Ramiz istedadlı aktyor və qələm adamı idi. Biz onun simasında gözəl bir insanı və istedadlı sənət adamını itirdik..."




Fotolar: Sabir Məmmədov - Rüfət Mikayılov/Global Media Group

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
17 FEVRAL ŞƏNBƏ 2024
www.kaspi.az

# “QARABAĞ”DAN “BRAQA”YA FUTBOL DƏRSİ

Təmsilçimiz azarkeşlərini sevindirməkdə, tarix yazmaqda davam edir. Ağdamlılar bu dəfə UEFA Avropa Liqasının pley-off mərhələsində “Braqa” ilə oyunda dünya futbol ictimaiyyətini təəccübləndirən nəticəyə imza atıblar.

2:4
BRAQA - QARABAĞ

Azərbaycan futbolunun baş tacı “Qarabağ” azarkeşlərini sevindirməkdə, tarix yazmaqda davam edir. Ağdamlılar bu dəfə UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk oyununda dünya futbol ictimaiyyətini təəccübləndirən nəticəyə imza atıblar. Qurban Qurbanovun baş məşqçisi olduğu komanda Portuqaliyada “Braqa”nın qonağı olub.

Tarixində ilk dəfə UEFA Avropa Liqasının 1/16 mərhələsinə yüksələn Azərbaycan təmsilçisi Portuqaliyadan 4:2 hesablı qələbə ilə dönüb. “Köhlən atlar”ın qollarını 21-ci dəqiqədə Marko Yankoviç (pen), 54 və 69-cu dəqiqələrdə Abdullah Zubir, 65-ci dəqiqədə Olavio Juninyo vurublar.

Meydan sahiblərində 44-cü dəqiqədə Simon Banza, 90+1-ci dəqiqədə Joau Moutinyu (penalti) fərqləniblər.

Təkcə nəticə deyil, komandanın göstərdiyi oyun da göz oxşayıb. “Qarabağ” oyun ərzində xeyli sayda qol epizodu yaradıb. Hətta oyunun son dəqiqələrində gənc hücumçu Nəriman Axundzadə qapıçı ilə təkbətək çıxsa da, şansından yararlana bilməyib.



ABDULLAH ZUBİR

### QURBAN QURBANOVDAN TƏVAZÖKAR AÇIQLAMALAR

Oyundan sonra keçirilən mətbuat konfransında “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov həmişə olduğu kimi, təvazökar açıqlamalar verib. O, rəqibin kifayət qədər ciddi komanda olduğunu vurğulayıb, Bakıda keçiriləcək cavab qarşılaşmasının daha çətin keçəcəyini bildirib. “Braqa” sürətli futbolçuları olan komandadır. Matç bizim xeyrimizə başa çatdı. Amma bu hələ ilk hissədir”, - deyə mütəxəssis vurğulayıb. O əlavə edib ki, “Braqa” kimi komandalar belə turnirlərdə istənilən nəticəni öz xeyirlərinə dəyişə bilərlər: “Ona görə də biz arxayınlaşmamalıyıq, cavab oyununda daha ciddi olmalıyıq”.

Qurban Qurbanov qələbəyə baxmayaraq, hər iki komandanın mərhələ adlamaq şanslarının bərabər olduğunu da söyləyib: “Məncə, şanslar 50/50-yədir. Belə turnirlərdə çox dəyişikliklər görmüşük. Daha soyuqqanlı olmalıyıq. Oyuna düzgün yanaşmağı fikirləşməliyik. Cütün taleyi həll olunub deyə düşünməməliyik. Bu, futbolçulara əks-təsir göstərə bilər. Qarşımızda “Braqa” var. Onların çox güclü futbolçuları var. Cütün taleyi Bakıda həll olunacaq”.



ARTUR JORJE

## ARTUR JORJE: “NARAZILIQ, MƏYUSLUQ, HƏTTA KƏDƏR HİSS EDİRƏM”

“Braqa”nın baş məşqçisi Artur Jorje isə məğlubiyyətin komandası üçün çox ağır olduğunu söyləyib: “Əslində bunu izah etmək çox çətindir. Ağır bir məğlubiyyətdir. Bir araya gəlməliyik, qopmamalıyıq. Uduzduq və ümumi hesabda geridəyik. Lakin gələn həftənin cümə axşamı günü cavab oyunu var. Biz buna psixoloji cəhətdən hazırlaşmalıyıq. Mərhələ adlamaq üçün səfərdə 3:0 hesabı ilə qalib gəlmək lazım olacaq. Bu, çox çətindir. Üzərimizə böyük məsuliyyət düşür”.

Artur Jorje azarkeşlərin narazılığına da toxunub: “Biz də bu barədə düşünməliyik. Azarkeşlərin bu gün Braqada baş verənlərə qəzəbləndiyini gördük. Üsyan ilk növbədə baş məşqçiyə qarşı olur. Çünki bu məqamlarda məsuliyyət daşıyan məşqçidir. Mən bunu başa düşürəm. Narazılıq, məyusluq, hətta kədər hiss edirəm. Yalnız söz verə bilərəm ki, biz daha çox çalışacağıq”.

### MOUTİNYO: “NƏ QƏLƏBƏYƏ, NƏ DƏ HEÇ-HEÇƏYƏ LAYİQ İDİK”

“Braqa”nın uduzu Joao Moutinyo da məyusluğunu gizlətməyib. O, fərqli oyun göstərməyə çalışdıqlarını, nəticə əldə edə bilmədiklərini vurğulayıb. Portuqaliya millisinin sabiq üzvü bildirib ki, 2:4 hesablı məğlubiyyət işlərini çox çətinləşdirib: “Biz nə qələbəyə, Nə qələbəyə, nə də heç-heçəyə layiq idik. Cavab matçında gücümüzü 100 faiz ortaya qoymalıyıq. Bu, təkcə keyfiyyətlə bağlı deyil, həm də iradə və ruhla bağlıdır. Məqsəd varsa, ümid də var. Bunun öhdəsindən gəlmək üçün mən də daxil olmaqla, bütün komanda cavab matçına fərqli münasibət göstərməlidir”.



QURBAN QURBANOV

JOAO MOUTİNYO

## ABEL RUİS: “QARABAĞ” TANK KİMİ ÜSTÜMÜZDƏN KEÇDİ”

“Braqa”nın futbolçusu Abel Ruis də Azərbaycan klubunun gücünü etiraf edib: “Qarabağ” tank kimi üstümüzdən keçdi. Növbəti oyunlarda daha diqqətli olmalı, vəziyyəti öz xeyrimizə dəyişməliyik. Qarşıda daha bir oyun var. Əvvəlcə diqqətimizi çempionata yönəldəcəyik, sonra isə “Qarabağ”la səfər matçı haqqında düşünəcəyik. Cavab qarşılaşmasında əlimizdən gələni edəcəyik”.

Qeyd edək ki, komandalar arasında cavab matçı fevralın 22-də Bakıda keçiriləcək.



ABEL RUİS

## ZUBİR HƏFTƏNİN ƏN YAXŞISI SEÇİLDİ

“Qarabağ”ın futbolçusu Abdullah Zubir UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk oyunlarından sonra həftənin ən yaxşı oyunçusu seçilib. Qalib UEFA-nın rəsmi saytında azarkeşlər arasında aparılan sorğunun nəticələrinə əsasən müəyyənləşib. Fransalı yarımmüdafiəçi səsvermədə Türkiyə “Qalatasaray”ından Mauro İkardini, İtaliya “Milan”ından Ruben Loftus-Çiki və Portuqaliya “Benfika”sından Anxel Di Mariyanı qabaqlayıb.

Qeyd edək ki, Abdullah Zubir “Braqa”nı 4:2 hesabı ilə məğlub etdikləri matçda 2 qol və 1 məhsuldar ötürmə ilə yadda qalıb.